# LEYLA ƏLİYEVA

# POEZİYA

Bakı-2016

**Mahir Qabiloğlunun tərcüməsində**

Redaktor:
**Əkbər Qoşalı**

Bədii tərtibçi:
**Cəlil Qaryağdı**

Dizayner:
**Zaur Qafarzadə**

**Leyla Əliyeva. Poeziya.**
Bakı, «Adiloğlu» nəşriyyatı , 2016, 200 səh.

*Kitaba şairə Leyla İlham qızı Əliyevanın müxtəlif illərdə yazdığı 55 şeiri daxil edilmişdir. Şeirləri ruscadan dilimizə çevirən və kitab halında çıxmasının təşəbbüskarı yazıçı-publisist Mahir Qabiloğludur.*

**İSBN 978-9952-8306-1-3**

©M.Q.İmamverdiyev, 2016

# GEDİM BİR AZ AĞLAYIM

Gedim bir az ağlayım,
elə-belə... astaca.
Ürəyimi gizlədim
yastığımın altında.
Pəncərəni açaraq
kövrəlmiş ürəyimi
bəlkə həyətə atım?!
Həyatın ağuşuna...
Yox, yaxşısı budur ki,
gedim bir az ağlayım,
elə-belə... astaca.

Kimsə duyuq düşməsin
kədərimdən, qəmimdən,
Durub yol alım bağa –
astaca ağlamağa...
Götürüm ürəyimi
atım çoşan ümmana –
dalğaların qoynuna.

Heç dinə də bilməsin –
“Niyə sığmır sinəmə?”
Gah tufan, gah da rüzgar
apardıqca uzağa...

Yox! Yaxşısı budur ki,
qoy dirrikdə basdırım,
dirilib çiçək olsun.
Ya da ki, bala tutum,
acısın unutdurum.
Özümü aldatsam da,
qoy ruhu ovundurum,
acısın unutdurum...

Ya dostları çağırım
Axşam vaxtı mən şama –
şərab içək doyunca.
Könlümü də versinlər
büllur qabda ortaya.
Dostlar ondan dadsınlar,
dadıb, gəlsinlər cana.

Budur, orda uşaqlar
Atılırlar-düşürlər.
Bəlkə topları yoxdu? –
Qoy verim ürəyimi
qovsunlar yorulunca...

Yox!
Artıq kədərlənmək yox!
Ürəyin dediyiylə
oturmaq yox, durmaq yox!
Atım onu bazarda,
ya da sizə verəcəm,
elə-belə, bədava...

Gecənin sükutunda
ürəyimlə tənhayam.
Yağış yağır, islanır
çətir tutmuram ona.
Qoy incisin...
Nə qədər
oyun açıb başıma...

Hərdən üsyana qalxıb
həm Günəşə, həm Aya
Hayqırıram: "Götürün,
verdim onu Allaha!"
Amma qərar vermədim,
neyçin qərar vermədim,
Bu geniş ürəyimi
sənə bağışlamağa?..

# ULDUZLAR PİLLƏ-PİLLƏ DÜZÜLSƏYDİ SƏMAYA...

Ulduzlar pillə-pillə
düzülsəydi səmaya,
Ay da nurun səpsəydi
kəhkəşanlı yollara.
Birər-birər qalxardım,
baş vurardım göylərə,
Səni oradan alıb,
qaytarardım geriyə...

Külək qadir olsaydı,
hissləri çatdırmağa,
Açaraq ürəyimi,
Verərdim tufanlara.
Coşardım, bağırardım,
göyə, külli-aləmə.
Sən də duyardın yəqin, –
– darıxmışam mən necə...

Səsin hələ canlıdır,
ürəkdədir o vaxtdan;
Ötən günləri, əlbət,
sən də xatırlayırsan...
Çaylar çatdırsa mənə
dediyin o sözlərdən.
Bil ki, çox qiymətlidir
min diləkdən, istəkdən...

Mən bilmirəm hardasan, –
Harda arayım səni?!.
Buludlara möhtacam,
anlatsınlar yerini...
Əlim əlinə dəysin,
sığallayım, oxşayım.
Tək bu ana həsrətəm, –
Vüsalına yetişim...

Yağış niyə ağlayır? –
göz yaşı da birümman...
Bu suala cavabı,
ala bilsəm yağmurdan

Ay da gələrdi dilə,
söyləyərdi gizlicə –
Ruhun şaddır, yoxsa ki,
gəzir göydə eləcə?

Yenə öncəki təki,
qayğın mənə aşikar;
Uzaqda olsan belə,
ruhun olur mənə yar...
Danışa bilsəydilər,
uca dağlar, zirvələr,
Səni çox sevdiyimi
həmən yetirərdilər.

Aramızda ağaclar,
dönüb körpü olsaydı,
Ayaqyalın, başaçıq
gələrdim həmən qaçıb;
Mən heç də hər hissimi
sözə çevirəmmirəm.
Gülərdim, təbəssümüm
söyləyərdi:
– Sevirəm..!

Bir gün bir qalib gündüz,
gecəni əsir alsa,
Günəş şəfəqləriylə,
zülmətə işıq salsa...
Səni  bağrıma basıb,
bərk-bərk qucaqlayaram;
Nə olsa da, gözümdən
uzağa buraxmaram...

Tək səndin mənə doğma
bu fani dünyamızda;
Xatirən əbədidir
ürəyimdə, ruhumda...
Yenə də ümidliyəm
bitməyəcək görüşə...
Mən buna inanıram
ümman boyda sevgimlə...

# ANA, NƏ OLAR, GETMƏ!

Ana, nə olar, getmə,
Məni atıb, tərk etmə!
Təlatümlü həyata
əbədiyyən qərq etmə.

Al isti qucağına,
Öp məni... məni oxşa.
Göydə ulduzlar yansın
bir ani baxışınla...

Heç dil də açmamışam,
Anacan,
mən körpəyəm,
Kitab nədir bilmirəm,
Dünyadan bixəbərəm.
Mən hələ çox körpəyəm,
Büdrəyirəm gəzəndə.
Sizi gözəl duyuram,
Həyatı bilməsəm də.

Mat qalmışam, can ana,
Ağlayırsan arabir.
Bu qədər yalan olar?
Yaddaşıma yazıram,
Böyüdükcə açılar,
bu yalanlar faş olar...

Siz böyüklər həyatla
oyun oynayan kimi
Gəlincik oynadıram,
Bu mən balan hələki...

Susmağı öyrənəcəm,
Əziz ana, susmağı!
Pünhanlıq, gizlilikdə
ötəcəm hamıınızı...
Qorxmağı öyrənəcəm,
Qəm-kədər çəkməyi də...
Güvənim azalacaq,
Həyatın gərdişində...

Gün gələcək
Uşaqlığa,
“Əlvida” deyəcəyəm.
Arzular da itəcək,
Uşaq vidalarımda.
Təkcə anam qalacaq
şirin röyalarımda.

Qəsrlər tikməyəcəm –
Ömür, gün yetməz, deyə...
Amma “heyf!” deyəcəm,
Bükülü bel, əsən əl
gəncliyi arayanda
qaranlıq küçələrdə...
Qocaldıqca,
gəzəcəm
qeyb olmuş körpəliyi.
Etiraf da edəcəm:
“Ürək belə istəmiş!..”.
Əlbət, anlayacağam –
zaman ötmüş, vaxt keçmiş...

Anacan, inan ki, mən
danışmağı bilsəydim,
Bu fani dünyamızda
necə yaşamaq lazım? –
Öyrənərdin sən məndən
Öz körpənin dilindən...

Ana, məni tərk etmə,
Sənə üz tuturam mən.
Eşit, inan və anla.
Səninlə nəfəs alır
bu məsum, gözəl körpən...

# SEVGİ VƏ NİFRƏT

Sevgi, dostunu tanı,
Nifrətə ürək vermə..!
Qarşısında diz çöküb,
Özünü təhqir etmə.
Sevgi, sənin bir dünya,
Ülvi məhəbbətin var.
Hər şeyə qalib gələr
sevgi olsa kimə yar...

İrəli get, büdrəmə
inciklik görən təki...
Gözlərini yum həmən –
qısqanclıq kor edərsə
yoxdur bunun həkimi...
Gözlərini heç yumma,
Yaxşı, sən deyən olsun,
Qoy bu yolda həmişə,
Sevgi səni qorusun.

Ağlın olsun, ay sevgi,
Qürura  inanarlar?
O bir səddir arada,
Bərk  vur, tökülsün daşlar..!
De,  kimə oynayırsan
Uşaq-muşaq  oyunu?
Baxılan sən, baxan sən,
Ay özünün vurğunu...

Bil ki, sevgi hər zaman,
Xoşbəxtdən də xoşbəxtdir;
Sənsə ondan hürkürsən,
Ondan qorxan bədbəxtdir.
Bil, nə qədər uçarsan
ümidlər  qanadında,
Nifrət geri çəkilər
sevginin qabağında.

İstəyirsən bu sevgi
tükənib, heç bitməsin?
Günəş batsın, yerini
heç vaxt Aya verməsin?

Bu heç mümkün də deyil –
gün doğub-batmalıdır.
Qaranlıq gecədə də
arzu boy atmalıdır...

Ağlama, yalvarıram,
Sevgi, sən mənə inan;
Ağlamağın gecələr,
Məni kövrəldir yaman.
Ay-ulduz istəmirəm,
Anlayın ki, nəhayət,
Mənə bircə şey lazım:
Sevgi, ülvi məhəbbət..!

Nifrətə dost deyirsən... –
Sevgi, görəsən niyə?!.
Ürəyim sənin deyil,
Kinlisən buna görə?
Mən Səni tanıyalı,
Məni başdan almısan...
Hərdən inanıram ki,
Məni  sən yaratmısan...

# GECƏ, QÜSURA BAXMA!

Gecə, qüsura baxma,
Səni sevə bilmirəm...
Yox, yox,  elə düşünmə
gözəllər gözəliyəm. –
Gündüzlər  hifz etdiyim
yalançı sirlər ki, var...
Sənin qaranlığında,
Sezilir aydın-aşkar.

Sən mənə dost deyilsən,
Gecə, incimə küsmə,
Yalnız dostlar söyləyər
sözün düzünü üzə.
Düz söz isə əslində
acıdır, əzablıdır...
Riyakar gündüzünsə
yalanı da bal dadır..

Gecə, bir mənə söylə,
Axı, nəyə lazımsan,
Xatirələrdə uyan,
Hissləri oyadırsan,
Məkrlə ayıldırsan
yatan arzularımı..?
Gündüzlər hey gizlənən
Günəşsiz  arzuları?

Gecə,  inan sən  mənə,
Aşikarlığın nahaq,
Bu cür açıqlıq yalnız,
Nağıllara yaraşar...
Gündüz hamı  gizlədər
Öz içini, qəlbini
İstər  dahi olsun o,
İstərsə də sərsəri...

Gecə, bir az saxta ol,
Mən də rahatlıq tapım.
Dan yeri söküləndə,
Şəfəqləri darayım...

Sən, gülüşümü yetir
Həyəcanısa itir...
Sis dumanda görsənən,
İztirabları bitir...

Nə sızla, nə də ağla,
Gecə, acıma mənə.
Yaxşı, ağla! İstəsən
Həmdəm olaram sənə.
Ürək-dirək verirsən,
Can yandırırsan yenə,
Dünyasa gərdişində,
Biz onun yedəyində...

Gecə, sən də hamıtək,
Məni tərk edəcəksən...
Elə ki, günü gördün
buraxıb gedəcəksən.
Sən də hamıdan biri,
İndi bildim sadəcə.
Mənə ümid versən də,
Könlüm əbədi gecə...
Deyim, deməyim, necə?..

# MƏKTUB

Mən məktub yazmamışam
sənə bircə kərə də;
Hisslər yığılıb qalıb
qəlbin dərinliyində...
Çəkinmişəm, qorxmuşam, -
- bilirsən nəyə görə? –
Layiqli söz tapmıram
ürəyin sözlüyündə.

Dünyada milyon söz var,
Nə olsun ki – çifayda..!
Hissləri çatdırmağa
bunlar yetmir haraya...
Sükuta tapınıram,
O da mənim ruhuma...
Ruhumdakı duyğular
uçub yetişir ona...
Sən hər şeyi eşidir,
Anlayırsan, bilirsən.

Aydın, təmiz səmada,
Yağışı özləyirsən.
Oxuyursan qəlbimi
kitab oxuyan kimi;
Günəş səndən pay alıb
Sarır şəfəqlərini...

Hiss edirsən sən həmən,
Əsən, coşan Xəzrini
Divarın o tayına
qısılan gizlinləri.
Sinə gərirsən hətta
nəhəng aysberqlərə,
Buraxırsan geridə,
Buzqıran gəmiləri.

Əriyib muma dönsə
zülmətdə bütün şamlar
Bu əngin asimandan
işıq saçar ulduzlar.
Gecədir, yuxudayam –
köhnə görüş yerində...

Bir görüşün xətrinə
yataram lap yüz il də...

Yenə gecə yarıdır,
Gerçəklik zilə çıxır,
Güzgülər də sayrışmır,
Əksim – aydın səmadır...
Yenə gecə! – Onunla
tənha deyiləm, bəli..!
Yanımda olmasan da –
Yadımdasan, ay dəli..!

Tök daşı ətəyindən
Fəth elə zirvələri.
Keç çayı, dənizləri,
Sahil öpən ləpələri,
Ucsuz-bucaqsız düzləri.
Haydı, gəl! Yolda qoyma
Vüsala həsrət gözləri..

Bəs niyə ağlayırsan?
Buna səbəb görmürəm.

Xahiş etmə,
Əbədi
Sənin ola bilmərəm...
Ömür-gün yoldaşıtək
Qarımaq istəmirəm.
Əbədiyyət şəlalə,–
onu ram edəmmirəm...

Mən məktub yazmamışam
Sənə heç bir kərə də.
Axır ki, qərar verdim –
Məktub yazacam – deyə
Lüğəti varaqladım,
Kasad göründü mənə.
Bircə "SEVİRƏM" sözü
Bəs etdi hisslərimə...
Qanad verdi naməmə...

# HƏR KƏSİN ÖZ SONU VAR

Qatar, vaqon, rels və yol,
Hamı deyir: – Yaxşı yol!
Taq-qa-tuq, çarxların səsi
Amma ki, eşidilmir
ürəklərin naləsi.
Sərnişinlər – müxtəlif talelər,
Onlar da artır, uzandıqca yol...

O tələsmir, şütümür,
Tələsməyi faydasız.
İnsanlara vaxt verir –
yalvarışa, tövbəyə,
ya da günah etməyə...
Vaxt ayırır, vaxt verir.
Tunel... zülmət, qaranlıq,
Ümidlər sönür bir an.
O başdan gün görsənir
dirilir sanki zaman.

Qatar yolunu seçib,
Gedir, elə ahəstə;
Bizimçünsə yazılıb,
Hər gün, saat, saniyə.
Qatar da amansızdır,
Ömür kimi, gün kimi,
"Sonun ölümdür"– deyən
bivəfa dünya kimi.
Düzdür, hamımız onun
Cəngindəyik bu səfər.
Amma ki, çox tənhayıq,
Ürəyimiz dərbədər.
Gözlərimiz yol çəkir,
Görən nəyi gözləyir?
Ağıl iztirab verir,
Şüur dinmir-danışmır.
"Alın yazısı" haqdır,
Heç kim üsyana qalxmır.
Qatar, dayan, qulaq as
insanların səsinə,
ağrı-acılarına,
acı göz yaşlarına.

Zamanın heç vaxtı yox,
Yenə saatın qurur.
Əqrəb yer dəyişdikcə
bizi də zaman udur..

Stansiya görünür.
Sevinirik: – Çatmışıq!
Vaqon boşalır-dolur.
– Vaxt azdır! – əsəbindən
bələdçi saçın yolur.
Qatarsa yola düşür,
Həyat kimi, ahəstə.
Köhnələr yerin verir,
Yeni sərnişinlərə.

# MƏNƏ DƏRMAN VERİN...

Mənə  bir dərman verin –
dərdim, ağrım yox olsun
Sevgim baldır, şirindir.
Dərman "şəkər"i salsın.
Elə dərman verin ki,
şübhə-kədər ərisin.
Çarə-əlac qılın  ki,
zaman mənlə yerisin.

Mənə bir dərman verin,
gündən, yağışdan, qardan;
Boğulmayım  tüstüdən,
kül olmayım alovdan,
Mənə bir dərman verin,
qorxudan və kədərdən;
Tanrı bağışlayandır,
təlqin gəlsin göylərdən.

Mənə bir dərman verin
sinə gərim tufana,
Eliksir içən kimi
başlayım yaratmağa;
Siz mənə dərman verin
həsədlə, kini yenim,
Qüvvət gəlsin dizimə,
eli-obanı gəzim...

Qoy dərman  sipər çəksin,
qəzəbə, tənələrə;
Tanrı bir səbəb salsın,
inanım peyğəmbərə...
Dərmanlar əlac etsin,
zökəmə, öskürəyə,
Səbəbsiz peyda olan,
qəm-kədərə, qüssəyə...

Bir dərman verin mənə,
yox olsun hiylə-kələk.
Bir dərman verin mənə
hərarəti ram edək...

Qışın qar-çovğununda
soyuğa qalib gələk...
Dərman içək, röyada
xeyir mələyi görək...

Dərman verin – çox verin,
heç xəsislik etməyin..!
Dərmanlar  bol olsun ki,
mərəzləri ram edim.
Sizdə bir dərman da  var –
"YAXŞILIQ" derlər ona,
Ondan da verin mənə
paylayım insanlara...

# PƏRVANƏ

Şam yanır, şöləsi nur,
Pərvanəm, bir dayan, dur.
Şam gözəldir, amma ki...
özünü oda az vur.
Başına dolandıqca,
Bir az da gur yanacaq.
Səhər açılanacan
yalnız külün qalacaq...

Qanadların məxməri,
Lap deyək ki, bir ipək...
Görürmü sən gözəli,
Sevirmi odlu mələk?
Od, alov məkrlidir
həyat kimi, kəpənək.
Öncə nənni yellədir,
Sonda tabut, gül-çiçək...

Bir qanad saxla, dayan,
Mənim xəfif pərvanəm.
Tənhalıqdan qorxmursan? –
Yalan demə, ay sənəm!
Təkliklə döyüşürsən
Ömür boyu, bir danəm;
Neyləyək ki, özünə,
Odu seçmisən həmdəm.

Mənim balaca dostum,
İncimə, sadəlöhvsən.
Ürəyin gül yarpağı,
Ümid nədir bilmirsən.
Dörd yanın kin və nifrət,
Bunları görməyirsən.
“Qibləgahım – məhəbbət,
Tanrım – sevgi” deyirsən.

Düşünürsən məhəbbət
heç vaxt xəyanət etməz;
Sevgiyə yalan qatıb
heç kəsi zəhərləməz.

Amma zəif qəlblərçün
işıq sönüb dumanda
Onları diriltməyə
heç qalmayıb güman da.

Məkrli parıltının
havadarı sis, duman...
Toranda görünməyir
məkr – sanki bir ilan...
Qanadlanan da yoxdur,
Uçmağı unudublar –
Məhəbbəti dananlar,
Ona inanmayanlar...

Pərvanəm, sən isə uç,
bilsən ki, öləcəksən
lap külə dönəcəksən
Uç! Uç! Alovunu quc!
Məhəbbət misraları
hədiyyə et bizlərə
Əsl yaşamaq budur,
Yaysın bütün qəlblərə...

# SƏNİ ATMAQ İSTƏMİRƏM

Səni tərk etmək çətin..! –
mən bunu istəmirəm...
Amma atıb gedəcəm
bu səddi yenməliyəm.
Məğlub olmaq üçünmü
oyun oynadın? – Nədən?!
Bir sual et özünə –
dərk et bunu dərindən...

Neyçin oyuna girdin?–
ağ bayraqla bitirdin.
Öncədən bilə-bilə,
Sən sonunu yetirdin.
Bunu bilirdin, əlbət,
Amma gözə almadın,
Zəfər ciddi addımdır,
Sən bunu anlamadın.

Yoxdur qalib! – Heç bunu
gətirmə xəyalına.
Zəfər sözü çox yaddır
bu oyunun adına...
Həyat elə həyatdır
Filimlərə aldanma.
Bəs onda səbəb nədir
təlaşa, həyəcana?..

Gözlərinə baxıram –
hisslər, duyğular labüd...
Sanma gənc ürəkdədir
bütün şübhə, tərəddüd...
İnanırdın sonunda
hər şey yaxşı olacaq,
Hər halda gözləyirdin,
İnanmağınsa – nahaq...

Sonun axırı budur,
Belə də olmalıymış..!
Ən sona nöqtə qoyub
yeni həyat başlamış...

İtirməksə çətindir,
Bunu mən də bilirəm;
Çünki özüm bu yolu
qarış-qarış gəlirəm...

“Bağışla” desəm sənə
yüngüllük taparsanmı?
Ən duyğulu anında
itirdiyini duyub,
Köksün üstə sıxdığın
o incə əllərimi
xahiş eləsəm səndən
açıb buraxarsanmı?

“Sızıldama, ağlama!” –
yox, ağlayan deyilsən..!
“Unut, yadından çıxart!” –
unudan da deyilsən...
Xahiş edirəm, süzmə
həsrətli gözlərinlə...
Yanaşı olanda da
təkdin öz aləmində...

Az da olsa, əqlimi
başımdan eyləmişdin.
Səni mən Məcnun etdim;
etirafda gecikdim..?
Lap boynuma alsam da
günahımı – nə fayda?..
Günahlar silinəcək
gün üfüqdən qalxanda...

Sən də qeyb olacaqsan
günahlarla birlikdə...
Təlaşlanma, yellənmə
qürubun yedəyində.
Mən sənə “yox!” deyirəm
“Yox” mövcud olmasa da...
Yolasa tək çıxıram
həyacanlar sarsa da...

Aramızda uçurum –
dərinliyi bir ümman.
Torpaq tökmə – bitişməz,
Heç cəhd etmə, ay oğlan.

Gedirəm, qəzəbliyəm,
Kinim – oddan-alovdan..!
Addımlarımsa kövrək,
Arxasında bir inam...

# VAXT

Vaxt! Dayan, yalvarıram,
Hara uçursan yenə?
Sənə deyirəm, sənə,
Al məni yedəyinə.
Tələsirsən de, hara?
Böl dərdini mənimlə.
Mən də ürək qızdırıb,
Sirlər açaram sənə.

Bu keçdiyin həyatda
nələr gəlmiş başına?
Heç kəsdən qorxun yoxdur,
Qalmısan özbaşına.
Əzib keçirsən həmən,
Hər nə çıxsa qarşına
Tələsirsən həmişə,
Tələsirsən, de, hara?
Axı səndə nə var ki,
Dünyada oxşarı yox –

Rica edirəm, anlat.
Ruhun – alov püskürür,
Qəlbin – daim narahat...

Bəlkə də bu həyatda
çox az şey bilirəm mən.
Bəzən də düşünürəm:
Allah, nələr bilirəm..!
Baxırsan hər şeyim var,
Ruhumsa itir-batır.
Dörd yanım adam dolu,
Təklikdən qulaq batır...

Gözlərimi bir anlıq
açmağımı görürəm,
Ətrafa, insanlara
acıyıram, yanıram.
Başa düşəndə ki, mən
özüm də çarəsizəm.
Qalmayır başqa çarəm,
Gözümü tez yumuram...

Həyatı anladıqca,
Bir-bir xırdalayıram.
Teldən incə nə var ki?
Qırmağa güc tapmıram.
Gülüş verib üzümə,
Nəzakət dumanında
ömrümü yaşayıram...

Ey ulu Vaxt, unutma,
Bu anı, bu balkonu,
o dənizi, gəmini...
Vaxt! Məni burda qoyma.
Hara uçursansa uç,
Götür qanadlarına
uzağa apar məni...

# YAY

Tanrım ömür versin
yüz il yaşayaq,
Çox azdır,
anlamsızdır,
otuzaltıca min gün
hey sərasər yaşamaq.
Onda nə arzulayaq? –
Günlər ötüşsün qıvraq...

Günü-günə calasaq,
Yetişməz ötən günə,
Sabah heç lazım deyil
Yazılmasın ömrümə...
Bahar cansıxıcıdır,
Qış bizə yad, biganə...
Yaysa təkdir,
Lap isti, qızmar olsun,
ruhuma qanad olsun...

O sanki bir mələkdir
fəsillərin içində...
Sonra soyuq düşəcək,
Payız qonaq gələcək;
Dərd öz ağırlığıyla
Qəzəbə tuş gələcək...

Gəl sabahı ötüşək,
Bəlkə günü il edək?
Axı günaha batıb
islanaraq, çimərək
buludun tellərində,
Olub yağışa yedək...
O da  əbədi deyil
Yağmur kəsib,
                    ötəcək...
Yox, bir azca gözləyək,
Cəmi bir həftə
Çox yox.
Yeddi günün sonunda
gün güləcək üfüqdə.

O da müvəqqətidir,
sonra atıb gedəcək.
Deyirlər ki, bir daha
Bahar çağı dönəcək.

Baharı kim sevmir ki? –
Hamıya əzizdir o.
Qoy mart olsun həmişə
ruhuma yaxındır o.
İyirmi doqquz gün sürən
Fevralısa sevmirəm.
İyirmi doqquz nədir ki? –
Ötəcəkdir gizlicə...
Yaya ümidlər böyük
Dözmək olar hər dərdə.
Gözləməyəsə dəyər
Yay üfüqdən boylanır,
Əl yellədir gizlicə...

# ÇIXIB GETMƏ

Çıxıb getmə, dayan bir,
Rica edirəm səndən.
Tənhalıq çox çətindir,
Yalqız qoyma məni sən.
Bir az da yanımda qal,
Təkliyimə kölgə sal...

Dəbdəbəli sözlərin
mənə təsəlli olmaz...
Çün nəfəsin yalandır,
Sarmaz, yaramı sarmaz.
Dostlarla düşmən oldum –
Bilirsən nəyə görə? –
Tək sənə yaxın olub,
Dost olmağın xətrinə...

Mənim kimi mələyi...
 gəl,
      dəyişmə yamana...

Məndən aldığın zövqü
heç kəs verməz dünyada...
Soruş, niyə həyata
asi oldum bu qədər? –
Sənə deyim, həyatdan
zövq almayır insanlar.
Sanki öləziyiblər...

Lənət yağdırıram mən
dörd yanımı sarıb da,
"mərhəmətli", "rəğbətli"
görünən üzsüzlərə...
Qondarma və yalançı
qafillər sürüsünə...
"Biz hamıdan üstünük" –
deyib öyünə bilən
axmaq hiyləgərlərə...

Məni onlara satma –
Əsla, layiq deyillər..!
Həyatımı verərəm
yadlara, özgələrə.

Amma ki, bölüşmərəm
taleyimi səninlə.

Özgələrə bənzəmə –
Ruhu qullar bir heçdir..!
Həyata boyun əyən
yolsuzluğu seçibdir...
Harda olursansa ol,
Heç vaxt məni unutma.
İşdi... unutsan belə,
Sonradan anıb, yanma..
Darıxıb, qüssələnib,
Taleyinə acıma...

Təsadüfi görüşə
bəhanə axtarmıram.
Ürəyimə əlavə
qəm-qüssə artırmıram.
Qiymətli hər nə varsa,
Onu qorumaq çətin;
İtirməksə bir anlıq –
Su içməkdir elə bil...

Çıxıb getmə, nə olar,
Yalqız  qoyma sən məni. –
Qaranlığın çölündə
işığa həsrətlini...
...“Əlvida” söyləməyə
heç macal da tapmadım.
Yerin göründü həmən,
Elə o an anladım...

# İNSANLAR

İnsanlar! Çox çətindir
sizi həmişə sevmək.
Ancaq, hərdən olsa da,
asandı nifrət etmək.
Bir-birinizi sevin ,
Sabaha ruhlandırın.
Kimsəni incitməyin,
Könlünü sındırmayın.

“Ötən günə gün çatmaz,
calasan günü-günə”.
Siz də heç tələsməyin,
Üfüqləri yenməyə... –
Sevinc, kədər, göz yaşı...
Qan-tərə də batsanız,
Zaman bunu hiss etmir,
Vecinə də almayır...
Şadlıq-kədər anlamır,
Ötür, saymır heç kimi.

Zaman üçün bir heçdir,
İnsan tələskənliyi...

Zaman, yaxşı bilirsən,
Sənə həsəd çəkirəm.
Sevirəm, qısqanıram –
Dərindən hiss edirəm.
Bir səhərlər mənim ol,
Bir də yuxularımda...
Zəncirləsəm mən səni,
Çin olar arzular da.

Əbədiyyən sən mənim,
olammazsan, bilirəm.
Onu da bilirsən ki,
hamı kimi deyiləm.
Verərəm nəyim varsa,
Təki səni ram edim.
Yandıraram hamını,
Təki səni əlimdə,
Əridərək mum edim.

Ağlayıram... amma ki,
Göz yaşlara xəsisdir.
Gözdən heç yaş gəlməsin,
Gəldiyi bəs eyləyir;
Hər bir damcı göz yaşı
Kirpiyimdə bir sirdir.

İnsanlar!
Öldürməyin,
Qan tökməyin, amandır..!
Onsuz da zalım əcəl,
Hər qapını tanıyır...
Nə olsun, gecə-gündüz
dənizlər də can alır.?! –
Talelər yox edirlər,
Gəmilər batırırlar... –
Suya dönür diləklər...

Gecə!
Ehtirasım, hissimsən.
Səni nə bölüşərəm,
nə də ki, itirərəm...

Mənə ulduz bəxş edən,
Təkliyimi ram edən,
Yeganə həmdəmimsən...

Adamlar bir-birinə
Küsməsin, darılmasın...
Ulu Göydən diləyək,
Günahlar bağışlansın..!
Mənə elə gəlir ki,
yuxulara dalanda
başqa aləm görürəm...
Üz tutub insanlara
səslənmək istəyirəm:
Sevin bir-birinizi... –
Elə bilin bu şeiri
Sizə alqış edirəm...

# CƏZAMI MƏN VERƏCƏM

Özümü tənbeh edib,
Cəzamı mən verəcəm.
Bilirsiz nəyə görə?
Pis apardım özümü
Ötən günkü məclisdə.
İncitdim insanları
qəlb sındıran sözlərlə.
Süzüldü al şərablar,
Cingildədi badələr...
İstəyirdim vicdan da,
Sərxoş olub tezcənə,
Çabalasın qədəhdə...

Cəzamı mən verəcəm,
O şaqraq, qəhqəhəli
gülüşlərimə görə...
Həqiqət olsa belə,
yersiz sözlərə görə...

Bir də, bunlardan başqa,
Dünyalara səs salan
gözəlliyimə görə...

Hərdən hey istəyirəm
görünüm özüm kimi,
Əslindəsə necəyəm? –
Bunu bilmirəm düzü...
İblis başımın üstə,
Ruhuma diqtə edir.
Mələklərin səpdiyi,
Xeyirxahlıq... bezdirir.

Dörd yanımda kədərli,
yazıq üzlər nə qədər;
Məni  ac baxışlarla,
diri-diri yeyirlər...
Mənimsə bir dostum var,
O da elə özüməm...
Pis  gündə, yaxşı gündə,
Özüm öz həmdəmiməm...

Qaranlıqda, zülmətdə
Əzab verən ağrının
Yolunu dəyişəcəm;
Cismimi məhv edəcək
ağrıya döndərəcəm.
...Günəşin arzusu nə? –
Buz dağını əritmək..!
Olmayan heç nəyini
itirmək istəməmək...

Qoy lap ağlasın hamı,
Qəmə, qüssəyə batsın;
Mənsə ağlamayacam.
Gözüm quru qalacaq... –
Qurumuş bulaq kimi...
Ürəyimi partladan
dəhşətli ağrıları
gülüşüm gizlədəcək.
Ruhum qumlu səhranın
sükutuna enəcək...

Özümə divan tutub,
Hökm oxuyacağam.
Qara sevda əlindən
...cuşa gəlib, coşacam...
deyəcəm son sözümü:
“Söz verirəm, bir də mən
iztirab çəkməyəcəm.
Özgə dərd-ağrıları
duyub, əlac olmağı
bəxtiyarlıq sanacam”.

# ÖMÜR

Bax, ömrüm ötüb keçir,
Velosiped belində.
Dayan, məni də gözlə –
Ömrüm-günüm, axı mən
Cavabdehəm tək sənə?..
Dayan bir, əyləci bas,
De, hara şütüyürsən?
Külək, ona sinə gər,
Bəlkə yavaşıdasan...

Bax, ömrüm ötüb keçir
gödəkçədə, cəkmədə...
Sanki bir qəhrəmandır –
Rəssamın ağ lövhədə
qara rənglə çəkdiyi
o gözəlim əsərdə...
Ömrüm, dayan, bəri bax,
Ani də olsa belə...

Gündoğandan əriyən,
Vaxtı əbədi elə...
Qürub çağını uzat,
Uzat, sonsuza qədər.
Həyatım, məni gözlə
Ömrüm ötməsin hədər...
Yuxularda gəlirsən –
Mən səni görmək üçün
yuxu nədi – tapmıram...
qucub xəyallarımı
gözü açıq qalıram...

Həyatım, səninləyəm,
Tək-tənha olanda da.
O sirli, o atəşli
iti baxışlarınla
məni ovudanda da...

Sən... təbiət kimisən –
hər fəslin yerindədir...
Sirdaşlıq örnəyisən,
gözəllik... qəlbindədir..!

# MƏNƏ BİR KƏLMƏ SÖZ DE...

Əzizim, bir söz söylə –
elə bir söz söylə ki,
Mən də bir cavab tapım.
Elə bir söz ki, onu
itirməkdən qorxaraq
bərk-bərk bağrıma basım.

Əlini mənə uzat –
əvəzində mən sənə
qəlbimi bağışlaram.
Hicrana hirslənmə heç –
hicran bağrını yarır
şirin vüsal xətrinə...

Bir bəri dön, mənə bax.
İstərəm bu baxışın
çöküb... gözümdə qalsın.

Köksün qəfəsi açıq,
Ruhum azaddır, uçub.
Sənin baxışın onu,
Tutub köksünə sıxsın...

Suçunu al boynuna –
İncidə bilirsənsə,
Etiraf da vacibdir..!
Ayrı düşəcəyik biz –
Səbəb gizli qalacaq,
Suları durultmasaq...

Üzr dilə, tövbə  et –
tövbə zəiflik deyil..! –
Yüngüllük tapacaqsan.
Qiymət verməyi bacar –
Qulaq asmasan mənə,
Riyakarlar yanında
həyatına davam et...

Sən mənə bir ulduz ver,
Əvəzində mən sənə
səmanı bağışlayım..!
Xəsis, acgözsə – yazıq...
Özü də hiss etmədən
yığdığını zamanla
başqaları yağmalar...

“Qorxan gözə çöp düşər”–
amma güclülərin də,
ürəyində ürkü var..!
Qorxuyla cəngə giriş,
Üstün gələrsənsə sən,
Bu gücünə güc qatar.

Sadəcə rəhmli ol..! –
qaranlığa qərq olmuş
qəlblərdə yanan şam ol.
Əvəzini heç umma..!
Xeyirxah olanlara
Tanrım, sən özün yar ol.

Mənə bircə söz söylə.
Bir sözün mənim üçün
qiymətlidir yüz sözdən.
Mən də imana gəlim,
Sevginin, məhəbbətin
səcdəsinə yüksəlim...

# ROMADA...
# TOZLU OTURACAQDA

Noyabr... Qədim Roma –
tozlu oturacaqda
əyləşmişəm sakitcə.
O başda da bir səfil
fikrə gedib, dinməyir,
təslimdir səssizliyə...
Görən nəyi düşünür –
nələr var ürəyində?..

Hiss edirəm uzaqdan,
Spirt, tütün qoxuyan
qəribə nəfəsini...
Üst-başından tökülən
çirkin üfunətini...
Bir ona baxıram mən,
bir də dönüb özümə.
Görəsən, bu səfildə
nə doğma gəlir mənə?!.

Görən o da bezginmi
öz doğma həyatından..?

Yanımızdan ötənlər
süzürlər qaşqabaqla;
Yenə baxıram ona,
sonra özüm-özümə.
Sual verib dururam:
“Oxşarlıq varmı bizdə?”
Səfil yalan danışmır,
Yalandan uzaqdır o –
oxşarıq buna görə?

Niyə yalan danışsın –
buna nə ehtiyac var?
Geriyə yol qapalı,
qarşıda uçurum var... –
İtirib olanını,
Tapmağasa həvəs yox...
Bir üzü var sadəcə,
iki üzə gərək yox...

Mürgüləyir sakitcə,
Xırıltı səsi gəlir. –

Anlamaq çətin deyil –
həyatın qulu olan
bütün insanlar yatır,
yuxusuna bal qatır...

...amma özümlə onda
oxşarlıq axtarıram:
"Hardasa bənzərik biz..!"
Axır ki, sualıma
qısa cavab tapıram...

Noyabr... Qədim Roma...
Qocaman şam bağında
tozlu oturacaqda
əyləşmişəm sakitcə.
O başda da bir səfil
fikrə gedib, dinməyir,
oturub kirimişcə...
Bu an hava dəyişir,
Külək cövlan eyləyir,
Bizi sovurub gedir...
Hardasa bənzərik biz..!

# GİZLİ SEVGİ BƏSLƏMƏK

Bir quş gördüm qəfəsdə,
kədərli gözlərində
həyat donub elə bil...
Yatanda yuxusuna
əngin səmalar girir.
Hey süzür, qanad çalır
buludlara qarışır...

...amma o qəfəsdədir,
Azad olmaq istəyir.
Kainata atılıb,
qanad çalmaq istəyir.
Qəm-kədəri qovaraq
dağı, coşğun çayları
süzmək...
dalmaq istəyir.
Əzablar yaşatmayan
duyğular arzulayır.
Ağrını, əzabları

birdəfəlik unudub,
Sevginin dünyasına
qanadlanmaq istəyir.
O sevgi dünyasında
ovsunlanmaq istəyir...

Hər bir ağac, hər budaq,
özündə bir dünyadır...
Dünyaya məhəbbətin
özü də bir dünyadır...
Bütün bunlara baxıb
qəlbimdə heyrət daşır. –
Bəlkə məkrli qəfəs
həyatdakı hər şeyə
məhəbbət aşılayır?!.

Anlamaz insanlarsa
ora-bura gedirlər.
Baxırsan ki, hər zaman,
harasa tələsirlər...
Heç bilmirlər ki, Günəş
hardan çıxıb, batacaq..?

Həzz almırlar dənizdən,
Dalğaların səsindən,
Həzin ləpədöyəndən...

Anlamaz insanların
Düşüncəsi kor qalır...
Qayğılar çoxdur, lap çox,
Dərd gedir, kədər qalır...
Ömrü elə-beləcə
verirlər gedir bada.
Düşünürlər ki,
zaman
uçmur, durub qapıda...

Quş qəfəsə salınıb,
cəftəni aça bilməz...
Bəlkə biz də bir anlıq,
qəfəsə qonaq gedək.?!
Bu həyata boylanaq,
çabalayaq, çarpışaq?
Bizə verilən ömrü
dərindən dərin duyaq...
Qiymətini anlayaq...

## QU QUŞU

Açıldı tək atəş,
Atıldı güllə,
Nazənin qu quşu
çəkildi göyə...
Bir anda arzular
göldə boğuldu.
Möcüzəyə inam
ordaca öldü...

Ovçununsa üzünə
bir saxta gülüş qondu...
Ürəyi od tanıdı,
vicdanı əzab çəkdi...
Qondarma gülüş isə
pərdələdi, gizlətdi.
Başqa bir həyata
nöqtə qoymaqla,
Guya həyatına
həzz gətirmişdi...

Sadəcə bir güllə,
Sadəcə bir an..!
Təmiz məhəbbətə
dedi "Dur! Dayan!"
Şəkk-şübhə tanımayan,
Aydan arı sevgiyə
ovçu vermədi aman.
Ağ lələklər üstündə
parladı qan, axdı qan...

Güllə atmağa insan
hüquqlu... iznlidir...
Bəs yaşamaq hüququ
bu dünyada kimindir?
Dilsiz-ağızsızları
Mühakimə edirik... –
Mühakimə edəndə
heyf... adil deyilik.
Çox vaxt ədalətsizik...

Bircə atəş açıldı...
Qu quşunun qətlinə
küləklər də ağladı.
Leylisini itirən
Məcnun quş "qu" desə də
"Qu" cavabı almadı...
Fəryadı ərşə qalxdı.
Dünyada nəyi varsa
hər şeyini yaxardı...
Təki ovçu atmasın,
Sonasına qıymasın...

Özün təslim edərdi
ovçunun qənşərində
Təki sonası süzsün
səmaların əngində.
Xiffət çəkməyin isə
özü... böyük əzabdır.
Eynən bir güllə kimi
Xiffət də qəlbdən vurur.

Güllənin gücünə bax –
kədər dənizə döndü...
Nazənin qu quşunun
ulduzu orda söndü...
Sonası qeyb olsa da,
Yarı onunla uçur.
Ürəyinin içində,
Asimanları qucur.

Acı-acı ağlamaq
quş üçün deyil adət...
Nə olsun ki, göz yaşı,
Ayrılıq yarasına
məlhəmdir lap zamantək.
Qoy göllər sonasının
o məcnun gözlərində
sonası görünsün tək.

Bircə güllə atıldı –
Gəl, unudaq hər şeyi..!
Vaxta çox güvənirik,
Çün dəyişir hər şeyi.

İnsanlar da qadirdir
bu həyatda çox şeyə.
Amma ki, güc tapmırlar,
Adi qu quşu kimi,
Sonalar sonasıtək,
Əbədiyyən sevməyə...

# DOSTLAR

Dost bir olar, ya iki –
bunu deyib aqillər.
Dünyaya gələn gündən,
"Sən dost qazan!" deyiblər.
Qəm-qüssəyə batanda,
Dostlar çatıblar dada;
Qısalar yaman günlər,
Dost çatarsa haraya...

Ey dostum, şəkk eyləmə
dostunun dostluğuna;
Şübhə dediyin şeyin
sonu yoxdur dünyada...
Qəhqəhə çək, qəlbən gül –
lap dişlərin ağarsın,
Təki ürəklərdəki
şübhələri dağıtsın...

Dost sənə həsəd çəkir,
Yalan-palan danışır? –
İndi onu görməyə
heç sən də şad deyilsən.
Amma bunu da bil ki,
o da düşünür elə. –
Elə hey gileylənir:
"Suçun böyüyü səndə"...

Axşam televizora
baxırsınız birlikdə.
Onda böyük ekrandı,
kiçik ekranlı səndə...
Ancaq sənin yerin başqadır,
başqa,
Altında kreslo, yerinsə başda...
Əsası odur ki, birgəsiz, birgə
Qəm-qüssə yox olar gülsəniz birgə.

Maşında əylənin lap səhərəcən,
Vay, problem çıxdı:

"Bu nə deməkdir?
Sükan dostumdadır,
məndə olsaydı..." –
Tacın olmasa da, özünü şah say,
Ağayana otur, qoparma haray...

Futbol oynayırsan dostunla birgə,
Ayağın sındırsan da, topa yiyələn..!
Amma görəndə ki, dost pərişandır,
Həyatda axsayır, sənə möhtacdır
Əlindən bərk yapış, sən yanında qal..!

Dost bir olar, ya iki.
Dostluğa dəyər verək,
Şad-xürrəm yaşamaqçun
hər bir kəsə dost gərək.
Heyif ki, bu həyatda
bir şeyin əlacı yox –
Ürəklərdə yurd salan,
Xıltı silib süpürmək,
Şəkk-şübhəni yox etmək...

# KOR OLMUŞAM

Kor olmuşam, gözlərim
bir qaranlıq dünyadır.
Gündüz nə, gecə nədir? –
gözüm bunu... anlamır.
Bircə onu bilirəm:
korları sevməyirlər,
sadəcə acıyırlar –
Yardım, sovqat, azuqə –
bunu adət ediblər...

Kor olmuşam...
Qorxudan,
şəkk-şübhədən uzağam.
Bunlar yoxsa, söylə bəs,
mən nədən qorxmalıyam?
Gözü nurlularasa
hərdən hey acıyıram,
Bəsirət gözlərinin
korluğuna yanıram...

Deyirəm ki, gözlülər
arzulara ruhlanıb,
həyata sevinmirlər?
Yoxsa, qanadsız qalıb
faniliyin cəngində
ilişib, can verirlər..?
Mənsə koram...
                    korları
görməyə yox gözləri...
amma ki, bacarırlar
bal kimi yalanları,
bizə yedizdirməyi...

Kor olmuşam, amma ki,
çox yaxşı eşidirəm
boşuna qaçmaların,
vecsiz can atmaların
izdihamlı səsini.
“Nə olacaq?” – deyərək
qulaqları səsdədir.

Olanlarına isə
qiymət vermirlər nədən. –
Bu da bir xəstəlikdir?

Kor olmuşam... amma ki,
hissiyyatım yaşayır,
Təbiətdə hər bir rəng,
ruhuma işıq saçır...
Kor olmuşam... amma ki,
"Vaxt çatmır, vaxtım yoxdur" –
deyən gileylilərə,
gözü nurlu kəslərə
kor gözlərim acıyır...

Eşitmirlər, duymurlar
biz korlartək sevginin
musiqili səsini...
Nə olsun ki, mən koram,
xəyallara dalanda,
arzular qanadında,
uçanda, ucalanda,
Seyr edirəm dünyanın
hər bir gözəlliyini...

Allahımı sevirəm,
ona yaxın olanda
göylərə ucalıram;
Əllərimlə astaca
qübbəni oxşayıram.
Möcüzəyə inamı
könüllərdən qoparan
həyəcanı atıram;
Sadəcə unuduram...

İncikliyi, təlaşı,
həsədi, paxıllığı
silirəm ürəyimdən.
Mənə göz lazım deyil,
çətinə düşənlərə,
kömək, arxa olmaqçun
Allahdan yalnız qüvvət,
bir də güc diləyirəm..!

Adamlar! Kor olsam da,
sizlərdən biriyəm mən..!

Sonda kor da, gözlü də
gedəcək bu dünyadan;
Ölümü qəbul edən
bəşər övladıyam mən.
Yaxşısı budur gəlin,
bir deyək, birgə gülək.
Çalışaq ki, zülmətdən,
İşığı görə bilək,
İşığı bölə bilək...

# MİLYARD ÖPÜŞ

Mən səni milyard dəfə
öpmək, öpmək istərəm.
Bilirəm, ömür yetməz,
milyard busə bəxş etsəm.
Səni milyard öpüşə
qərq etməkdir istəyim...
Ömür, vəfa et bir az
sonra deməsinlər ki,
əhdə vəfasız getdim.

Həyat, dayan! Bir dincəl!
Yorulmadan, durmadan,
Elə hey yüyürürsən;
Dünyada nə saat var,
qıraram hamısını –
saniyə də bölünər,
dənələnər nar kimi...
Elə bil heç yoxuymuş –
saniyə tarix olar...

Son ilə başlanğıc da,
qızmar günəşlə qar da
əriyib yoxa çıxar...

Sən yanımda olanda
heç kimsədən qorxmuram.
Sevgilim, sənlə sanki
ulduzlardan da pünhan
başqa kainatdayam.
Bura bizim dünyadır,
burda zaman da başqa,
ölçülər də başqadır...

Mən səni çox sevirəm,
bəlkə də sevgi gülünc,
hədəriymiş... nə deyim..?
Amma... yox! Sevgin mənə
bir daha anlatdı ki,
Məhəbbət
                    ülviyyətin,
                    gözəlliyin
                    cəmidir;

O,
təmiz qəlbimizin
başqa bir aləmidir..!

Sevirəm! – Suçummu var?
Mühakimə etməyin!..
Məhəbbətin gözü kor,
qulağı da kar olar...
Bizimçün bütün sözlər
səssiz, sanki laldılar;
Sevənlərçün ağaclar,
Susur... nəfəs almırlar...

Sevənlər heç qorxmazlar,
Nə sual, nə cavabdan;
Məhəbbət olan yerdə,
sevən həqiqət sanar
qəlbin sayrımasını...
Sevən kəsi qorxutmaz,
həyatın tufanları.
Çünki könlündə yoxdur,
şübhənin sıx dumanı...

Qayğıdan, darıxmaqdan
Qorxudan və hürküdən
Uzaq olar sevənlər...
Sevənlərçün bu dünya,
çoxdan köhnə röyadır.
Onların öz dünyası
bir-birinin gözündə
doğulan bir dünyadır.

Heç cəhd də eləməyin
sevgini... sağaltmağa....
Ürəkdən sevənlərçün
eşqə əlac tapmazsız...
loğmanlar dünyasında.
Deyirəm, cəhd etməyin,
Eşqin əlacı yoxdur..!
Bəlkə ən güclü dərman
Elə eşqin özüdür...

Mən səni milyard kərə,
öpmək, öpmək istərəm.

And içirəm!.. –
Xəyallarda olsa da,
Tək bir kərə olsa da...
Əhdimə və sözümə
əməl edəcəyəm mən.
Sənə böyük sevgimlə
sədlər yenəcəyəm mən...

# YENƏ DƏ TƏK-TƏNHAYAM...

Yenə də tək-tənhayam,
ey mənim fani dostum...
Bir Aydır, bir də rüzgar,
təkliyimə havadar...
Beynim də bu həyatdan,
Olubdur məsti-xumar...
Günəş də gedib yatıb –
dərin yuxuya çatıb...
Mənimsə yuxum gəlmir –
hardasa itib-batıb.

Zaman yaman tez uçdu...
Gündüz çox bəxtəvərdim
fani dostumla birgə...
Bəs indi tək nə edim?
Sevgi qibləgahım yox... –
kimə dualar edim?

Bax, yenə də tənhayam...
Eh... belə olmağını
arzu etmirdimmi mən?
Gün batdı, məni atdı,
qövsi-qüzeh bərq vuran
ruhum zülmətə batdı.
Yata bilmirəm nədən?
Yuxu məndən gen qaçır.
Bu insafsız yuxu da
bəlkə, mənə naz satır?
Gündüzün işığında,
kətanın üzərində
yaratdığım o rənglər
yoxsa... yoxsa... hədərmiş?
Deyim, bu da qədərmiş?
Ya buraya qədərmiş?!.

Bax, yenə də tənhayam...
Hünərim, qətiyyətim,
bəs hara yoxa çıxıb?

Axı insanlar sevmir
gözüqıpıq olanı,
“Silahsızam” deyərək,
daldada qalanları.
Elin xoşu gəlməyir
sızlayıb ağlayandan,
qəm-qüssəyə batandan,
Ümidsizəm, gücsüzəm,
deyib zarıyanlardan.
Özünə və üzünə
yazıq görkəm verənə
mələklər də rəhm etmir,
bir cəllada çevrilir..!

Bəlkə, mən yaratdığım
“Həyatım” əsərində
uydurub çox rəngləri,
ifrata nahaqq vardım.
Hissimlə, taleyimlə
məzələndim, oynadım.

Bəlkə də, çox nahaqdan,
öz əksimi, kölgəmi,
dünyadan ayrı tutdum...
Doğrudanmı, dünyada
dünyadan çox sevdiyim
adamlar ürəksizmiş?!.

Bax, yenə tək-tənhayam...
Birdən yalqızlıq mənim
ruhuma doğma gəlsə?..
Əsla..!
        Onda...
                söyərəm,
qınayaram özümü...
Lap yalan sifət alıb
riyakarlıq edərəm –
sanki heç eşitmirəm,
qəlbimin ağısını,
qəlbimin acısını...

Bax, yenə tək-tənhayam...
Axı niyə həsrətə
ürəyimi açaraq –
sirrimi deməliyəm?..
Boş kətan çərçivəni,
qoyuram göz önündə –
– pəncərənin yanına,
Səhər naxış, bər-bəzək,
çəkəcəm varağına...

# ORADA ƏBƏDİYƏM

“Mənə olan sevginə
nöqtə qoya bilərsən?” –
Sükutun dili ilə
soruşdum sevgilimdən.
Yəqin ki, ayrılıqdan
ölməzsən... –
Kim ölüb kim.?!
Qəlbinin acısına,
azacıq nəşə qatıb
həyatına eləcə,
davam eləyəcəksən...

Ölən gününə qədər
bunu bir dərd eyləyib
xiffətmi çəkəcəksən? –
Ya da unudacaqsan –
Bir ilə, iki ilə...
Cızdığın üz cizgimi
pozacaqsan kağızdan,

ya da ki, rənglər qatıb,
gətirəcəksən cana?
Sən məni ürəyindən
silə bilərsən, əlbət;
Günün qürub çağında
axtarmazsan da xəlvət...
Beləcə davam edək:
Danışma, dilə gəlmə...
Ağzından çıxan sözün
yolu yoxdur geriyə...

Əlbət, bacaracaqsan,
bunu hamı bacarar;
Zaman da nəfəsini
asanca oğurlayar...
Gün üzündə sən məni,
İtirməklə, sevgilim,
Yuxularda ruhuma
yenə də sənsən hakim...

Sən məni unuda bilərsən, əlbət,
Görüm olmaz olsun belə xasiyyət..!

Kədəri mən sənə öyrətdim, fəqət,
Sən qüssədə qaldın, etdim cinayət...

Burda tək günahkar özüməm...
özüm...
Bağışlayacaqsan – mən inanıram .
Zəif ürəkləri mən qıra-qıra
Qəlbimdə qəlpələr toplayacağam...

Mənə olan sevginə
nöqtə qoya bilərsən.
Əlbəttə, bacararsan –
Bir sirri açdım sənə –
inam dolu bir sirri:
Ruhunu tərk etmirəm..!
Nə qədər ki, mən özüm
özümü dərk edirəm –
orada əbədiyəm...

# SƏNİ ANLAMIRAM MƏN

Vaxt görən hara uçdu..? –
Uçdu… yaman tez uçdu.
Qar yağdı, boran gəldi –
qapıda yenə qışdı...
Ruhum sıxıldı yaman,
qəlbimə çökdü duman.
Yaydan güc alan ruhum,
qışa düşdü... üşüdü...

Bağdakı qönçələr də,
büzüşüblər – açmırlar;
Xəzərin qumsalları,
bərq vurub sayrışmırlar.
O kəslər ki, tənhadır,
elə tək də qalacaq –
Şaxta sinələrini,
qəm-qüssəylə yaxacaq...

Qəlbim, niyə donmusan?..
axı ürəyi saran
buzu necə isidim? –
Söylə, necə əridim?
Deyəsən sən özün də
heç bunu istəmirsən.
Buza dönmüş ruhuna
qışı doğma bilirsən...

Ah... Bu zaman, görəsən,
hara belə tez uçdu?
Haray çəkdim bir dayan!..
Əqrəb 6-nı vurdu...
Yol zülmətə büründü...
Günəşdən nur istədim,
                batdı...
                pərtliyim güldü...

Əlim çatsa Günəşə,
gizlədərdim ovcumda –
Heç vaxt şər qarışmazdı;
Həmişə gözlərimdə

göz yaşı, qüssə görən
gecə qonaq gəlməzdi...

Gəl, sən məni bağışla,
ay ürəyim, bir dənəm.
Bir də sənin xətrinə
dəymərəm, söz verirəm..!
Lap dünya dağılsa da,
Səndən uzaq düşmərəm...
Fəqət, bilməm, nə edim,
Nə qədər çalışsam da,
Səni anlamıram mən...
Səni anlamıram mən...

# MƏSUM QIZCIĞAZ

Heç cür fikrimdən çıxmır
dərya dərinliyində
qəm-qüssəyə qərq olan
sənin ala gözlərin...
Təkcə sən  şənlənmirdin –
göz qoyurdum uzaqdan.
Balaca qızcığazım,
inan ki, sənin üçün
darıxıram o vaxtdan....

De, bu səkkiz yaşına,
nələr görüb gəlmisən?–
Zülm, qəzəb, tənələr?!.
Söylə, ürəyindəki
işığı kim söndürüb?
Ruhundakı rəngləri,
Naxışları pozmağa,
De, kim qıyıb, axı kim?..

Yəqin hər axşamüstü
qəm-qüssəyə batırsan.
Görən, kimi anırsan?..
Bilirsənmi nələr var,
Sığındığın bu qalın
divarın o tayında?..
Böyük, əngin bir dünya...
Hər şey gözəldir orda...
Deyəsən inanmırsan?!
Möcüzəyə inamın
silinib yaddaşından.

Əyninə keçirdiyin
donu sevinc bilirsən.
Bu sevincdən doğulan
ümid cücərtisini
itirməyəsən deyə,
Yanağına həkk olan
təmiz göz yaşlarıyla,
Hamıdan gizlin-gizlin
ovcunda gizlədirsən.

Yumanda gözlərini
isti ocaq görürsən...
Musiqi eşidirsən,
Bir də... gülüş səsləri.
Diksinirsən...
Buz salxımlı gecəylə
tez üstünü örtərək,
Nəfəsini dondurub,
Gecənin qorxusunda
Bax beləcə yatırsan,
Röyalara batırsan.
Yəqin ki, bayramlarda
hədiyyə gözləmirsən...
Axı “ACI YALAN”dır
həyatda ilk hədiyyən...
Amma gecə yarısı,
Ölü sükut çökəndə,
Ömründə duymadığın
ananın lal səsini
çağırırsan köməyə...

Fəqət, yaxşı bilirsən,
Onun səsi lal-dinməz...
O səs sənin səsinə,
Cavab verməyib... verməz.
Sən dünyaya gəlmisən
tək-tənha qalmaq üçün.
Qəlbində buz qəlpəsi –
əriməyi çox çətin.

Məsum uşaq baxışlı,
Tənhalıq taleyinmi?
Qismət belə gəlibsə,
Belə də getməlimi?..
Ey məsum qızcığazım,
O titrək əllərinlə
elə hey oxşayırsan
o gözə görünməyən –
səni daim hifz edən,
ümid mələklərini...
Sığallayırsan zərif,
ipək lələklərini.

## YALAN

Yalan, gəl tövbə edək –
Uydurulmuş sözlərə
bu gündən vida edək.
Axı kimə və nəyi
utanırıq deməkdən?
Yalan meyvə qurdu tək
qəlbi yeyir içindən...
Düzdən niyə qorxaq ki? –
dili düz söz tutmayan,
əyrilər qorxsun ondan...

Yalan, o kimdir deyən? –
"Yalan sevinc bəxş edir".
Ya da qəm tunelində
işıq ucu göstərir?..
Axı kim söyləyir ki,
xiffət çəkmək pis şeydir.
Qəlbdən gələn hissləri
gizlətmək çox əbəsdir.

Əgər istəyirsənsə
kədərlən ya da şənlən,
Onsuz da suçun böyük...
Tanrıdan imdad dilə;
Günahını hamıdan
özün yaxşı bilirsən.
Qürub! Sən həqiqətsən,
həqiqət qürub deyil...

Sən aldatdın, amma ki,
qalib gəlmədin, əsla..!
Doğru-düzgün yüksəldi
qaliblik zirvəsinə..!
Yalan, sənin ağ üzün
kömək etmədi ona.
İndi məkrli gecə
qoymur onu yatmağa.

Yalan,
Sənin bəhanən
bəlkə sığmaz dünyaya...

Həyat dönüb bənzəyər,
sanki “retro-kino”ya...
Yalan, bir də cəhd elə –
and iç ki, bundan sonra
doğrulara qaçacam..!
Azadlığı iblisə
sataraq nahaq yerə,
haqqı itirməyəcəm..!

Cəsur ol, qaç yalandan.
Çətirsiz yağış altda
asudə gəzişəndə,
peşman olmayacaqsan.
Kim düz söz danışırsa,
nədən qorxmalıdır ki?
Yalan qırx gün yaşayar –
həqiqətdən yaxasın
kim qurtara bilib, kim?

Kimi aldatdığının
sən heç fərqindəmisən?
İndi hamıdan ötrü

bir tək sən cavabdehsən.
Lap heç kimsə bilməsin,
anlamasın... amma ki,
qorxu daim beynini,
sıxacaq, incidəcək.
Bu ağır əzablarsa
vicdanını içindən
asta-asta yeyəcək...
yeyib də, bitirəcək...

Tutaq ki, sən aldatdın,
hamı inandı buna;
Özün- öz aləmində
deyək, yalan danışdın;
Amma onu yaxşı bil,
özünü aldatmadın.
Özün öz aləmində
özünə böhtan atdın…
Böhtan altında qaldın…

## HARDASAN, DÜNYANIN YAXŞI ADAMI?

Söylə görüm, hardasan?
Dünyanın ən yaxşısı –
təmizqəlbli insanı..?
Hansı uzaq qitədə,
hansı məmləkətdəsən?
Bir görüşün xətrinə
dənizlər, çaylar keçim,
təki sənə rast gəlim...
Zirvələri fəth edim,
yerlərə göydən baxım;
Hissimi, duyğuları,
zamana qurban verim.
Qəlbimdəki közləri,
lap gur alovlandırım.
Təki sənin kölgəni,
gözümdə canlandırım.

Ormanları adlaram.
Ətrafın gülüşünü,
harayını, küyünü
duymamaqçun...
yalandan
özümə “kar” deyərəm.
Tək səsini duymaqçun
əngəl olan hər şeyə,
hər şeyə “yox” deyərəm.

Məni heç nə hürkütməz –
nə fırtına, nə tufan;
Nə də göz yaşı töküb,
acıqlı yağan leysan.
Göy üzünü bağlayıb
sənin baxışlarını
gizlətməyə çalışan
gözümə həsrət qoyan
buludları qovaram.

Qanadlı quş olsaydım,
uçaraq səmalarda,
Səni arardım orda..! –
Bərk-bərk qucaqlayaraq,
gözümdən bir anlığa
buraxmazdım uzağa.
Balıqlarla dost olub
üzərdim yanlarıyca,
ya da ki, baş vurardım,
hamının unutduğu,
okean dibindəki,
mərcanlar oylağına...
Birdən rast gəlləm deyə –
axtardığım insana...

Ay bərq vuran gecədə
yatmam... həsrətindəyəm,
Harayasa tələsən
insanların selində
dördgözlə arayıram;
Bəlkə kölgəni tapdım,
bəlkə səni tanıdım...

Səhərlər mürgüdəykən
dan yerini hayladım:
"Sualıma cavab ver,
xahiş edirəm səndən" –
Axı dünyanı gəzdim,
bütün Yer kürəsini
ələk-fələk eylədim.
Axı haradadır o?!. –
dünyanın ən yaxşısı,
qəlbitəmiz adamı?
Qızmar şüalarınla
bu sirrinə işıq sal,
hicranı ərit, dağıt...

Gündüz bunu eşitcək,
gülümsədi astaca:
"Kim deyir yaxşı insan
əlçatmaz uzaqdadı?..
O hər kəsin içində –
Ürəyi başındadır..!"

## KƏDƏR

Günlərin bir günündə
kədər döydü qapımı,
Mən isə unutmuşdum
qıfılları asmağı.
Başqa şey düşünmədim,
öz qəfil qonağımı
dəvət etdim içəri... –
Qonaq-qaralı evdə
darıxmaz ev yiyəsi.

Gəl, ey kədər, gəl səni,
tünd çaya qonaq edim.
Yanında da şipşirin
mürəbbələri düzüm.
Mən sənin yanındayam
ona görə darıxma;
Darıxmağa biz hələ
vaxt taparıq... nəvaxtsa.

Dan yeri sökülməmiş
bəlkə də gedəcəksən;
Gedəndə axşamüstü
geri dönəcəyini
vədə də verəcəksən...
Bəs səhər yağış yağsa,
billəm...
onda,  səhər də
qəlbimi bərk-bərk sıxıb
orda isinəcəksən...

Bilirsənmi, ey kədər,
Səni mən gözləyirdim.
İnan ki, səninlə mən
savaşmağa da şadam.
Hətta əvvəlcədən də
çayı  cüt gətirmişdim.
Axı yaxşı bilirəm
məni heç unutmursan,
bəzən tək həmdəmimsən...

Bilirsənmi, ey kədər,
saymamazlıq etsəydim,
səni şəksiz-şübhəsiz
qovardım həyatımdan...
Amma ümidliyəm ki,
yəqin özün anlarsan;
Mənim qızıl vaxtımı
hədərə çıxarmarsan...

Bəlkə elə götürüb
saatları sındırım.?!
Axı vaxtla, saatla
başqa cür daha necə
dava-dalaşa qalxım?
Əgər mənim qonağım
olmağa qərarlısan,
buyur... nə deyirəm, qal...
Kədərsən... öz adınla
həyata yeni rəng qat...

# GÖZƏLLİK

Gözəllik, inan ki, sən,
çox amansız qüvvəsən...
amma iş səndə deyil,
qarşında diz çökübən
yalvarış etdim sənə
amandı,
          cəngə girmə
          yaralı ürəyimlə;
getmə onun əksinə...

De, mənim ürəyimə
axı nə vermisən ki –
indi ala bilmirsən?
Açıqca, gözgörəsi
onnan cəngə giribsən..?
Bax, bu gözüdoymazlıq
səni məhv eyləyəcək...
Ancaq zülmət gecədə
maskanı çıxaranda

qəm-qüssədən yanırsan;
Gecəni tək-tənhasan...

Söylə, nə istəyirsən?
Sədaqətli ürəyə –
sevgi yarası almış,
pak və məsum ürəyə
sahib olmaq! –
                    azdımı?
"Bu nə gün-güzərandır?" –
deyib gileylənməklə,
bil ki, heç vaxt, heç yerdə,
razı qalmayacaqsan...

Bilirsən neynəyəcəm? –
Hələ heç vaxt yanmayan
kibritləri çaxacam,
Sənin divanə ağlın
alovlanıb yanacaq.
O gözəl, cazibədar
gözlərinin önündə
vərdişlərin kül kimi
havaya sovrulacaq...

Şeir dəftərlərini,
cırıb, tikələyəcəm.
Çünki acı həqiqət
əyir misralarını...
Hər sözünə çökübdür
ağrı, əzab, iztirab.
Ürəksə öləziyir
incə, zərif əllərdə...

Ürək! – Bir bax can verir,
Boyasız... ehtirassız...
Amma ehtirasda da
aman yox, qurtuluş yox..!
Yox, mən daha verməərəm
ixtiyarı iblisə...
Axı odur incidən
səni lap uşaqlıqdan.

Gözəllik, inan ki, sən,
çox amansız qüvvəsən.
Amma ki, gəl tələsmə
özünlə fəxr etməyə..!

İnsanın qəlbi, ruhu
əgər gözəl deyilsə,
üz-gözün gözəlliyi
dəyməz bircə qəpiyə...

# YENİ İL

Bayram görüşümüzü
yaman gözləyirəm mən –
həyəcanla, təlaşla.
Bu ana hazırlaşıb
gizlətmişəm ürəyi
yastığımın altında.
Qəm-kədəri, qüssəni
qovmuşam uzaqlara...

Yeni il yolkasında
yandırdığım şamların
itirmişəm sayını...
Buxarı da çırtaçırt
yanır gur alovuyla...
Mənsə çox gözləyirəm
bayram görüşümüzü,
Qalıb gözüm yollarda.

Mən Yolkanın altına
hədiyyələr düzmüşəm,
Gecə yarı olmamış,
açasan hamısını...
İstərəm hamı üçün
sən bir Günəş olasan.
Bu şəfəqdən mənə də
kiçik pay ayırasan.

Sənə rəngli qablarda
hədiyyə düzəldəcəm;
Qapağını açanda
sanma ki, içi boşdur. –
Qutuların hamısı
ən yaxın insanların
arzularıyla daşır...

Sən Yeni il gecəsi
onları aç, sevindir..!
Qoy nə arzu ediblər
həyata keçsin bir-bir.

Sonra isə xəlvətdə,
mənim də arzumu sor,
Bil ki, nədir istəyim,
nədir arzu-diləyim?

İstəyirəm hər kəsin
ulduzu lap gur yansın.
Mən səndən diləyəndə
zaman da diləklərə
ram olsun, həyan olsun.
Səni tələsdirərək
əqrəbləri qovmasın...

Mən çox istəyirəm ki,
ruhu təlaşlandıran
dalğalar quzu olsun.
Mənə bir hədiyyə ver,
lap xırda, həm də sadə. –
Qoy lap gülsünlər mənə
Yaxın, doğma adamlar,
bu xırda istəklərə...

İstədiyim odur ki,
gecə həmdəmim olan
mələk məni əfv etsin.
Ən böyük istəyimsə... –
Gur səslə deyim, eşit:
İstəyirəm əbədi
bəxtəvər olasan sən! –
Bu dünyada yaşayan
bütün insanlar üçün..!

Səninlə bu görüşü
yaman gözləyirəm, bil.
Tez gəl, bizi sevindir
Yeni il,
Ay Yeni il!

# ÜÇ QOCA BALIQÇI VƏ QIZIL BALIQ

Üç qoca – üç balıqçı
zamana dəyər verib,
qızıl ləpədöyəndə
qızıl balıq ovuna
çıxmışdılar gün üzü –
qəribəydi o günü...

Birinci balıqçının
bəxti tez üzə güldü:
Qızıl balıq əvvəlcə
onun toruna düşdü.
Balıqçı həm çox kasıb,
həm də çox-çox qocaydı.
Amma ki, pul-paradan
başı yaxşı çıxırdı,
Pulun nə olduğunu,
çox gözəl anlayırdı.

Balıqsa dil açaraq,
Yalvardı bu qocaya:
“Qaytar məni həyata –
dəryaya... dalğalara...
Əvəzində inan ki,
borclu qalmaram sana!”
Qoca sevincək dedi:
“Səndən birdir istəyim –
Bu işdə karım olsun,
çoxlu qızıl istərəm,
mənim də cibim dolsun.”

Arzu yerinə yetdi,
qoca hamıdan varlı,
imkanlı oldu, getdi...
Amma qızıl balığın,
sevinci çox çəkmədi,
Suya atılan kimi
o biri balıqçının
tilovuna ilişdi...

Bu qoca da şikarı,
qamarlayaraq həmən
söylədi ki, "Hökmdar
olmaq istəyirəm mən".
Balıq bu qocaya da,
söz verdi – yaman verdi –
Taxt-tac sahibliyini
balıqçıya vəd etdi...
Di gəl, yenə sevinci
çox da uzun çəkmədi
Göz açınca özünü
üçüncü balıqçının
ovuclarında gördü...

Dil açdı ki, "Ay qoca,
bilməm nədir diləyin.
Amma yerinə yetər
hər arzun, hər istəyin...
Əvəzindəsə sənə
yalvarıram, bağışla,
burax məni, at məni
dalğaların qoynuna..."

Qoca qızıl balığı
dənizə tullayaraq:
“Atıl sən dalğalara,
Tələs, burdan get” – deyir.
Sən birinci deyilsən,
bu həyatda çoxuna,
beləcə, təmənnasız
kömək etdim”... söyləyir.

Qızıl balığı sular,
alır öz ağuşuna,
Dalğaların qoynunda
üzür, gözdən itərək. –
“Mən özüm bu həyatda
çox hədiyyə versəm də,
Bu qoca bəxş eyləyən
azadlıqdan təsirli
hədiyyə görməmişəm”...

Nə vaxtsa Tanrı bizi
cənnətdən məhrum etdi...

Çox müdriklik eylədi...
Əgər biz Yer üzünü
məhv ediriksə bu cür
Cənnəti də dağıdıb,
eyləyərdik yəqin puç...

O vaxt ki, Tanrı bizi
cənnətdən məhrum etdi,
fərq etmədik,
                yerinə
böyük bir sandıq verdi...
Dedi ki, insanlara –
"köməklik etməklə
                        sən
sandığı yaxşılıqla
doldur, ey bəni-adəm"..!

Qoca da evə gəldi,
qazandığı
           YAXŞILIQ
qismətini çıxarıb
sandığa yerləşdirdi.

Düz etdi ya etmədi
onu bir Tanrı bilər.
Qoca nə qəsr tikdi,
nə də dövlət topladı.
Etdiyi yaxşılıqlar
onu bu kainatın
ən varlı, ən dövlətli
adamına çevirdi...

# TANRIM, SƏN MƏNƏ GÜC VER!

Tanrım, sən mənə güc ver –
heç zaman unutmayım;
Allah kəlamlarının
pak, təmiz nəfəsini...
Tanrım, sən mənə güc ver –
Bilməyim yalan nədir.
Axı bizim dünyada,
qəlbi saflıq hər şeydən,
ucadır, dəyərlidir...

Tanrım, sən mənə güc ver,
tamah, nəfs qədəhi,
dəyməsin dodağıma...
Tamah! – Onun gözləri
heç vaxt, heç yerdə doymaz...
Tamah dolu badəni
içdikcə də boşalmaz...

Tanrım, mənə güc ver ki,
çox, çox yüksəyə uçum...
Bir daha anlayım ki,
qanadlarım kövrəkdir –
ağac budağı təki...
Həddimi aşsam azca,
coşsam boş təkəbbürdən,
bolluqdan gicəllənib,
həyatın düz dibinə
yuvarlanıb düşməyim...

Tanrım, sən mənə güc ver –
Kindən və ədavətdən
partlayıb,
göz yaşını
gizlədənləri görüm.
Onların bu kininə,
gizli ədavətinə
xeyirlə cavab verim.
"qanı suyla yuyarlar" –
Ataların sözünə
əməllə cavab verim.

Kiminsə arxasınca
danışaraq, heç zaman
təhqirlərə keçməyim...
Gözlərimin önündə
təsəvvür edib onu,
Ürəyimdə nə varsa,
elə üzünə deyim?..

Tanrım, mənə güc ver, güc,
qoy yazığım gəlməsin
binəva insanlara... –
Yazıqla yazıqlanmaq,
alçaltmaqdır, əslində..! –
Əgər yazığın gəlir,
söylə ona,
                ey insan,
istəsən sən özün də
güclü ola bilərsən..!
Qoluna qüvvət qatıb
sərhədləri yenərsən...

Tanrım, mənə güc ver ki,
anlamsız şeylər üçün...
Yalvarmayım mən sənə,
pozmayaq Ulu Göyün
ruhi tarazlığını...
Tanrım, mənə güc ver ki,
dünyaya yeni gəlmiş
körpətək məsum olum...
Qəlbi şeytan əlində
olanın əlləriylə
bataqlığa düşməyim...
Əgər birdən görsəm ki,
yolumu azıram mən,
Yaddan çıxarmayım ki,
haqq yolu da açıqdır.
Tanrım, mənə güc ver ki,
qoy hamını sevim mən;
Çünki bütün insanlar,
Sənin zərrələrindir...

## ƏMİNƏ NƏNƏ

Qarışdırdım yuxumu...
Gördüm ki, balıqlar da
Quşlar kimi uçuşur...
Ayılıram... Sən yoxsan.
Bilirsənmi,
                    yoxluğun,
görünəcək hər zaman...

Qar basıbdır həyəti...
Qar dondurub ruhumu...
Yanımda sən olsaydın,
bunu sənə deyərdim...
Sənsə bir baxışınla
qovardın qəm-qüssəni.
Yanımızda olsaydın,
əvəz edərdin həmən
Qardan, soyuqdan qaçıb,
gizlənən o Günəşi...

Şəfəq saçan Günəşə
buludlar pərdə olmaz;
Biz də elə bilirdik,
çöhrən heç zaman solmaz.–
Günəş qüruba dalmaz...

Derlər, zaman – təbibdir,
Neynək... zamana əhsən!
Amma ki, arzuları
bəzəyib, dəyişməyə,
izn verməm aman,
qadir deyildir zaman.

Sən də şəfa verirdin
balaca nəvələrə.
İndisə vaxt dəyişib...–
Zaman təbibsə əgər,
əlac etsin kədərə...
Torpağın üzü soyuq,
həsrətik sənin isti,
mehriban gülüşünə...

Sənin o gülüşlərin,
zarafatların yaşar.
Gözlərin yumuldusa,
bizsiz olan səhərin
cənnətlə bir açılar...
Sən bizi qoyub getdin
məkanın behişt olsun!..
Göydəki ulduzun da,
parlasın, hey parlasın,
Gecəmizə nur saçsın!..

# İLK BAXIŞDAN VURULDUM

Mən sənə ilk baxışdan
aşiq oldum, ay sənəm.
Saçların, dodaqların,
baxışların bir aləm.
Mən sənə ilk baxışdan
vuruldum...
İnan ki, sən,
Bir başqa cür vurulmaq
mümkün deyil, biləsən.

Mən sənə bərk vuruldum..!
"Nə üçün, nəyə görə?" –
bu cür yersiz suallar
qoy gəlməsin dilinə...
Mən sənə aşiq oldum
ilk baxış, ilk görüşdən.
Bəlkə ilk baxışlardır,
Məhəbbətə güc verən?!

İstəyirsən, sus, dayan
ya da bağır –
duymaram.
Bircə, dodaqlarının
tərpənişi görünər...
Özümü səndən ayrı
təsəvvür eləmərəm...
Sevgiyə də Tanrıtək
inanan bir bəndəyəm...

Olsun ki, öncələr də
vurulmuşam. – Nə olsun?
İndi aşiq olmuşam,
dərd-qəmi unutmuşam,
Günün günorta çağı
Ayın əsarətindən
qurtulan Gün olmuşam...
İstərsən ağla-sızla,
mən də sənlə ağlaram.
Gülmək istəsən əgər
yalnız və yalnız mənlə
şənlənib, gülməlisən..!

Mən sevgi şərabını
içib xumar olmuşam.
Qaranlıqdan həzz alan
Ay təki parlayıram.

Sənin incə əllərin... –
bütün bu Yer üzünün
ən gözəl əlləridir...
O əllər bir əlacdır
darıxanda, qəlbimə.
Divara çökən kölgən,
sanki bir ikonadır –
Baxıram, hey baxıram,
doymuram itaətdən...

Tanrıdan tək istəyim
bircə bilsəydin nədir? –
Deyirəm, qüvvət versin,
səni heç itirməyim!
Ruhum sevgi doludur –
nəfəs alır, yaşayır...
Ürək təlaşa gəlir, –

Yenə, yenə də sevda
qəzatək başa gəlir...

Mən sənə vurulmuşam
sən ki, bunu bilirsən...
Amma sən bilməyirsən
gücünü bu sevginin...
Məni gündə yüz kərə
öldürüb, dirildirsən.
Yalnız  sənin yanında
acizləşir ölüm də...
Öləræmsə, qoy ölüm –
dizlərinin üstündə..!
Yalnızca bu cür ölüm –
diləyirəm özümə!..
Qanımla yazacağam
bunları divarlara,
Yanında olmayanda,
oxuyasan tək-tənha...

Mən sənə ilk baxışdan
vuruldum, aşiq oldum..!

Elə o an kor oldum,
həmişəlik – ömürlük..!
Əgər istəyirsənsə
yaşa mənsiz, nə deyim?..
Amma ki, o dünyada,
Dön yanıma, mələyim.
Təkcə budur istəyim,
yalnız budur ümidim...

# ÇƏRÇİVƏYƏ SIĞMARAM

Çərçivəyə sığmaram, –
çalışmayın boş yerə.
Ruhumu yaxın, doğma,
sanırsızsa bu qədər –
İnsanlar, siz azadlıq,
azadlıq verin ona..!

Bəlkə can atmayasız
hisslərimi duymağa..?
Beynimdə, şüurumda
bambaşqa bir dünya var...
Siz mənə inanın ki,
qəm-qüssədən bir zərrə
əlamət yoxdur orda.
Öz ruhuma rahatlıq
gətirən mənəm orda.

Sən də ağlama, ey dost,
dəyişmərəm mən səni,
ruhu, özü yadlara...

Qorxma alovlarından,
odundan cəhənnəmin;
Axı, odun su adlı
əlacı var dünyada...

Ağlama, sızıldama
məhəbbətin xətrinə..! –
Ürəyinə hökm etmə!
Mən uçuram göylərdə,
möhkəmdir qanadlarım..!
Onları sındırmağa
söylə, bir güc varmıdır?..

Meydan oxuma mənə,
"divan tutacam!" deyə.
Məni sevib-sevməmək
deyil sənin gücündə...
Gözünə pis görünsəm,
gözünü qurdalama...
Mən belə istəyirəm!..
Sən də bacarmalısan
bunu bağışlamağı...
mənə belə baxmağı...

Mənə yazığın gəlib,
hönkür-hönkür ağlama!
Mən taleyi, qisməti,
gözündən oxuyanam.
Bəli, mən gedirəm,
lap
əriyirəm vaxt kimi...
Mən yalnız özümküyəm,
özümə... mən hakiməm!

Mən indi tam başqayam
anla və inan mənə..!
Hədsiz arzu tamahtək
rahatlıq vermir mənə...
Sənsə nəyi daha çox,
arzulayıb, sevirsən.. –
Arzunun səmasında
qoy parlasın ulduztək...

Mən çərçivəyə sığmam!
Mən bambaşqa adamam.
Sanki qəfəsdə quşam...

Mənə azadlıq lazım,
lazımdır... – nəfəs alım..!
Aç, burax, məni Göyə,
Tanrıya dua edim..!
Yuxularda yanına
uçub gəlləm, sevgilim...

# SƏN ELƏ GÖZƏLSƏN Kİ...

Sən elə gözəlsən ki...
Almaz qaşlı üzüktək
işıq saçır gözlərin...
Sən elə gözəlsən ki...
can alır gözəlliyin...
De, insan da bu qədər,
gözəl olar, ay mələk?!.

Ağlı başdan çıxarır,
ruhu yandırıb yaxır
alovlu baxışların...
Bir az insafın olsun,
lap itirdim özümü... –
Sən olmasan, neynirəm? –
Fərqi yoxdur mənimçün
dan ağarsın, şər düşsün...

Qış kəsdirib qapını,
görən yoxsa ki, payız?

Vallah, heç fərqi yoxdur –
hamısı mənə əziz...
Taleyimsə əl çəkmir:
– Axı, nə istəyirsən?
Cavab verirəm: – Heç nə..!
Bircə zəng etsin mənə.

İnan, səsin gələndə
ürəyim də döyünmür.
Sən güləndə elə bil
zaman susquya dalır...
Telefonsa zəng çalmır...
Susur, elə hey susur...
İntizardan nəfəsim
Kəsilir, buz bağlayır...

Sən elə gözəlsən ki...
"Gözəlsən" deməyimə
bəlkə milyon səbəb var;
Bunu sən də bilirsən.
Sən hər şeydə gözəllik
arayırsan, görürsən...

Ölüm cəzası almış
ən qəddar insan belə
sevimlidir səninçün...

Yaxşı anlayıram mən...
Sən heç vaxt, heç bir zaman
mənim olmayacaqsan...
Bilməm, kimin üzünə
səndən əl çəkirəm mən!..
Amma bir xahişim var:
Yazığın gəlsin mənə –
təkcə xəyallarından,
arzu-diləklərindən
silmə məni, əzizim...
Sən elə gözəlsən ki..!

# SƏN GETDİN UZAQLARA

Sən getdin uzaqlara,
heç demədin, haraya..?
Həyat boşaldı... Aman!
soyuqdur, soyuq... yaman.
Qara görünür hər yan...
Sən uzaqlara getdin,
mənsə gələ bilmərəm...
“Gəlmək yasaqdır!” dedin...

Sən ki, məni lap çoxdan,
lap çoxdan tanıyırdın;
Utanırdın de niyə? –
Utanmağın bihudə...
Mən sevgini duyarkən,
səni dünyalar qədər
sevməyə başlayarkən
sən getdin uzaqlara.
Söyləmədin heç, hara?!

Barı özünü qoru
od saçan güllələrdən.
Atəşlər qorxuludur,
ürəyini titrədən
odlu busələrim tək...

Qoru, qoru özünü
xoşbəxt günlər xətrinə.
Tez qayıt, ürəyimdə
səhər açılsın yenə,
Səhər açılsın yenə...

# HEÇ VAXT YALQIZ DEYİLSƏN

Gecələr Günəş səndən
üz çevirib gedəndə,
Ay da sənə naz satıb,
buludlarla üzünü
bağlayıb, gizlədəndə...
Köksündəcə qəlbinə
yol tapmağa çalışan
bir kədər duyacaqsan...
Yalqız olmadığına
onda inanacaqsan...

Ad gününü dostların
unudub, anmayanda,
Gözündən
düşmənlərin,
nifrət, ədavət və kin
silinib,
yox olanda...

Nəyə gərək hissləri,
gur səslə nəzmə çəkmək? –
Onsuz da qəlbdən-qəlbə
yollar uzanır, mələk...

Olanları, keçmişi
tufanlar, dəli rüzgar
sovurub aparanda...
Ən kiçik anları da
yaddaşdan sıyıranda...
Qar əriyib, vüsala
bənzəyən göz yaşıyla
yazla vidalaşanda...
Sən bundan təsəlli tap,
təsəlliyçün nə dağa,
nə də ki, daşa düşmə...

Tutaq ki, tək-tənhasan,
bu kiçik planetdə –
döngələr arasında,
yolların tıxacında...

Lap bu fani dünyada
tək olsan da, lap tənha...
Heç nədən hürküb qorxma..!
Çünki başının üstdə,
Tanrın vardır, unutma!..

# ÜMİD

Ümid hər birimizin
uşaqlıqdan içində
sadədil inanışla
yaşayan bir... vərdişdi.
Qəlbimiz çırpınanda,
bir əlac axtarmışıq,
köməyə gəlib ümid. –
Ümidə tapınmışıq..!

“Ümid yoxdur” deyənlər
öz-özünü aldadır.
Biz onsuz neynəyərik? –
şaxtalarda donarıq,
günahlarda batarıq...
Onsuz yaşamaq çətin;
bir addım belə atmaq
mümkün deyil ümidsiz.
Onsuz bir kövrək yarpaq
bapbalaca bir kol da
bizimçün qorxuludur.

Cəsurun qəlbində də,
o yaşayır, döyünür...
amma ki, qorxağa da
ümid böyük güc verir...

Mən öz ümid payımı
səninlə bölüşərəm.
O sanki bir Günəşdir. –
qurudur göz yaşımı.
Hər şey olduğu kimi
yerində qalsa belə,
Ümidlər dilindəki
ən adi yalanları
min bir rəngə boyayır...

Olub-keçənlər üçün
bağışlayarsan məni.
Seçsən, bu da bir yoldu...
“Hər şey unudulubdur”. –
Qıraqdan baxanlarçun
sadə görüntüdü bu...
Ümidsə... ümidədir.

Həyat yaralarına
ümidlər tək məlhəmdir.

Məni bağışlayarsan...
Bəlkə də, yox, nə deyim..?
Əgər xoşbəxtliyimiz
yenə yalana dönsə –
heç narahat deyilim.
Ümid lap yaxındadır,
çağırarıq köməyə!..

# DOSTUM, YAXŞI Kİ, VARSAN

Dostum, sən bir atəşsən
sanki heç dayanmadan
yanaraq od saçırsan.
Bir iti baxışınla
yandırırsan, yaxırsan...
Girirsən qəlbimizə,
hökmünə ram edirsən.

Gücünü, qüdrətini,
qadir olduqlarını
yaxşı bilirsən, dostum;
Həyat oyunlarında
həmişə qazanmağın
ən mahir ustasısan...
Bəxti gətirən dostum...

Hərçənd ki, hər ürəyə,
ruha da acıyırsan;

Gecəni qaranlıqdan
hifz edib, qoruyursan...
Bizim kimi yaşamaq
sənə uzaqdır, əlbət;
Bizsə sənintək, dostum,
ola bilmərik, fəqət...

Bəzən elə bilirəm,
cadügərsən, falçısan.
Qəlbdəki diləkləri
əzbərdən deyən falçı...
Zalımlığı, pisliyi
rüzgarlarla sovuran,
Ürəyini saflığa,
xeyirxahlığa açan...

Hamını pisliklərdən,
zülmlərdən qorumaq..! –
Görəsən sənin buna
ixtiyarın çatırmı?

Xeyirxahlıqdan qılınc
düzəltməyinsə nahaq...
Qılınclasa asandır:
sadəcə boyun vurmaq..!

Hərdən düşünürəm ki,
sən cadügər qadınsan.
Səni qınamağasa
ixtiyarım çatmayır.
Çünki zalımlığını
öz içindən qovmusan.
Xeyirxah mələklərlə
dostluq qurmağın üçün...

Bax, sərgərdan olmusan –
nə yerdə, nə göydəsən...
Buna görə qəmlisən?
Buna görə gözlərin
işıq saçır, nikbinsən.!?

Ey dost, səni həyatda
anlayıb, duymasam da,

Səninlə həyatıma
davama "yox!" desəm də...
Hər gün, hər axşam çağı,
adın gəlir dilimə.
Göylərə üz tutaraq,
sənə dua edirəm –
"Dostum, yaxşı ki, varsan!" –
Tanrımıza şükürlər..!

# KƏDƏR ÖTÜB GEDƏCƏK

Axşamüstü qəm-kədər
ürəyə sarılanda,
Dan şəfəqləri belə
ruhu oxşamayanda,
Badələr də bomboşdur
ürəyimin içitək.
Bəlkə indi sükut da
eyləməz mənə kömək...

Günəş Göy qucağında
yuxuya qərq olanda,
Dəli rüzgar səngiyib,
torpağa baş qoyaraq
şirin yuxu tapanda,
Ürəyimi yoxlayım, –
görəsən döyünürmü?.. –
Lap döyünsün – bunların
bir dəxli varmı ona..?

O döyünür..! – Əlbəttə,
döyünməlidir hər vaxt;
O döyünür... baxmayır
mən dərdliyəm ya xoşbaxt;
Axşamüstü qəm-qüssə
ruhumu tam saranda,
Sıxacağam mən onu
əllərim arasında...

Axşam çağı yenidən
qəm-qüssəyə batanda,
Xəzri mənim ruhumu
didib-parçalayanda,
Yalandan, iftiradan
uzaq olduğu üçün
hisslərimin önündə
diz çöküb, baş əyirəm...
Həm də ki, acıyaraq... –
"Darıxma! Qəm-qüssə də
bir gün ötüb gedəcək". –
Deyib, ümid verirəm...

# MƏNİM ŞEİRİM

Şeir dünyam, mən səni
sevirəm
çünki safsan.
Cövhərindən doğmasan,
doğrusan – yalanın yox...
Yanımdan saymazyana
gülərək keçən illər
məni ötərlər... amma
xəyaldı sənə çatmaq...

Mən öz şeirlərimi
sevirəm – deyim niyə? –
Çünki müti deyillər..!
Nə gözləri kölgəli,
nə də ki, xəcildirlər..! –
Zülmətdən, pisliklərdən
daim yüksəkdədirlər.
Bədnəzər, yan baxışlar,
dedi-qodu, gileylər
şeirimdə görünməzlər..!

Onu salmaq olarmı
qəm-qüssə qəfəsinə?
Axtarma, tapammazsan
ilhamıma çərçivə...
O, ağacda yuvadır,
Budağı kəsib, qırıb,
onu dağıtsan belə
ilhamım qanad açar,
uçar uca göylərə..!

Şeirimi çox sevirəm
güc-qüvvətinə görə...
O, bir Tanrı sirridir
anlamağım imkansız...
Şerimdəki hər kəlmə
mənə əziz, doğmadır;
İstər gündüzlər yazım,
istərsə də yuxuda...

Şeirimi çox sevirəm.
O, qəlbimin, ruhumun
ən təmiz aynasıdır...

Kədərli olsam belə,
onunla şad-xürrəməm.
Təklikdə olsam belə,
tək deyiləm şeirimlə...

# QAÇIRIQ, UÇURUQ, TƏRK EDİRİK

Ömür boyu, gün boyu
harasa tələsirik.
Qaçırıq, lap uçuruq,
sondasa... ən sondasa
torpaqları qucuruq...
Bu dünyada necə də
zəifik, əlacsızıq...
Həm də sevgi acıyıq –
sevgidən heç doymuruq.
Can atırıq sonsuza,
Səmaya, ümmanlara...
İri gəmilər bizi
alıb aparır ora...

Biz qaçırıq... uçuruq... –
Səs salır mühərriklər,
nalə çəkir maşınlar... –
Çox çətin olsa belə

bu səs-küyün içində
qəlbimizə tuşlanan,
qəlbimizi ağrıdan
hər cürə baxışları
ürəkdən yan edirik –
Qıymayırıq ürəyə...
Hansı daha asandır? –
ürəyi boş saxlamaq,
yoxsa, omrün sonuna
dolu ürəklə varmaq?..

Uçaqlar havalanır,
bizsə onun içində...
Uçuruq – tez çatmaqçun,
tələsirik harasa...
Amma inanmaram ki,
uçmaqçun yarananlar
tələsələr bizimtək...
Bu cür qovhaqovlarda,
yuxu da bizdən bezar...
Bəsirət gözümüzün
işığı avazıyar... –

Bu yüyrək sətirləri
tez-tələsik yazıram;
Çünki mənə deyiblər
"beşcə dəqiqən qalıb!"
Yazıram, yaddan çıxar
nöqtələr qoymaq, hətta...
Neynək, kimə lazımsa
nöqtəsiz də anlayar...

Bu şeir parçasını,
ayaqüstü yazsam da,
qələm yağ kimi gedir...
Çünki şeir ruhumun
zirvəsindən süzülür.
Bəzənsə təntiyirəm,
ruhun burulğanında...
Amma ki, şeirlərim
nə olsa da, qarışmaz
taleyin gur selində...

Ey dostum, mən gedirəm,
di, sağ ol, salamat qal..!

And olsun ki, sevmirəm
“Əlvida” söyləməyi.
Amma hey mənimlədir
sənli xatirələrim,
Yəqin varaqlayacam,
vaxt-vədəsi çatanda...

İllər uçub gedəcək,
yel kimi, rüzgar kimi...
Lap çoxdan unutduğum,
günlər yada düşəcək.
Başa düşəcəyəm ki,
çox nahaq tələsmişəm.
Soruşacam özümdən:
“Axı niyə? Haraya?”

Amma bu günə qədər
bu saysız suallara
cavab tapmamışam mən.
Həyat tapmacasını
tapmağa, axtarmağa
bir an belə vaxtım yox...

İndisə göz yumuram
bu həyata əbədi..!
Siz Allah, bağışlayın,
əcəl durub qapıda...
Tələsirəm... – vaxt qısa...

# ÜRƏYİMDƏ YADIMSAN

Qəm-qüssə içindəyəm,
çünki yanımda yoxsan.
Qəlb evimdən çıxaraq,
uzaqlara uçmusan –
uzaqdan da uzağa.
Ürəyimsə boş qalıb,
tənhadır sən gedəndən...
Dostlar çoxdur – nə fayda? –
ürəyim səni arar...

Çırağı çoxdan sönüb,
yiyəsiz mənzil kimi...
Damarlar onu sarıb,
hörümçək toru kimi...
Biz bu fani dünyada
sevgiyçün yaşayırıq.
Doğuluruq sevgiyçün,
onnan nəfəs alırıq...

Qəlbimin qapısını
yumruqla vurub-vurub
qırmaq istər qonşular...
Dostlar qapı zəngini
inadla çalıb durar...
Qəlbimsə... qəlb qırmayıb
cavab verir sakitcə:
“Orda yalnız bir yer var,
o da məxsusdur sənə..!”

Sənə məxsusdu... Boşdur...
Bu soyuq mənzilinə,
qayıtsan, dostum, əgər
yəqin ki, qapıları
açılacaq üzünə...
Amma bil, özgələr tək,
yadsan bu ürəyimdə,
ögeysən daha mənə...

# MƏNƏ ÖZÜNDƏN DANIŞ...

Mənə özündən danış.
Nə danım,
            maraqlıdır
səninlə bağlı hər şey...
Hərdənbir ürəyimə
yalqızlıq çöksə belə... –
Xoşdur, çünki düzünü
tənhalıq söylər mənə...

Yox, sən təsəlli vermə!..
Hər şey ötüb-gedəcək.
Şərab unutduracaq
sıxıntımı, qəmimi...
Mey əzəcək qüssəni,
əridəcək kədəri. –
Alov buz parçasını
suya çevirən təki...
Amma nə faydası var? –
suya çevrilsə belə,

qəm yenə həminkidir,
cismini dəyişsə də...

Mənə təsəlli vermə! –
mən heç nədən qorxmuram.
Bir də ki,
                təsəlliylə
qürur dost ola bilməz!..
Sükutun dili ilə
Tanrını çağırıram:
"Bizi bir-birimizdən
ayırma, yalvarıram!"

Mənə özündən danış
lap qoy bircə söz olsun...
Səsini gecə-gündüz
eşidirəm, mən hər an...
Gözlərinsə hər şeydən
mənə əzizdir, əziz.
Çünki əksimi orda
ayna təki görürəm. –
Orda özüm özüməm...

# EY MƏNİM MƏHƏBBƏTİM

Sevgilərin  ülvisi,
Yaradanın bəxşişi,
ey mənim məhəbbətim.
Tanrıya dua edib
diləmişdim mən səni.
Duam Göylərə yetdi,
Tanrım da hədiyyəmi
mələyiylə yetirdi:
O sən idin, ay  sevgim...

Gülüşün aydın səma,
Gözlərinsə bir Günəş.
Saatlarla, günlərlə
Baxaram, heç doymaram.
İlahi yuxulardan
yerdə ayıldım  ki, mən
Səni bərk-bərk qucub da,
Köksümə sıxa biləm.

Sən məlhəmsən qəmimə,
dərmansan həsrətimə.
Səhərimə işıqsan,
gecəmə  yaraşıqsan.
Öpürəm əllərindən,
öpürəm, heç doymuram.
Hər kəsdən qiymətlisən,
əzizsən ürəyimə.

Sən bir başqa birisən,
başın üstə mələklər.
Müqəddəs yuxuları
bil, çətin ki, unudam…
Ruhun dərin qatına
yığıram mən onları.
Dan yeri söküləndə
Günəş oğurlamasın.

Ey ülvi məhəbbətim,
sən ki  bilirdin bunu!

İlk baxışdan, görüşdən
anlamışdım;
                mən səni
heç zaman itirmərəm...
Qəlbin dərinliyində
əbədi gəzdirəcəm.

İndi də yanımdasan...
Yağmurdan heç qorxum yox!
Heç duyulurmu tufan,
Gəlirmi şimşək səsə?
Tanrı gözəl dünyada
yuxulara inanan
cavabsız sevgilərə
kiçik bir körpü qurub.
Qoy çatsınlar vüsala –
sevgililər röyada,
Heç zaman çin olmayan
şirin yuxularında...

## ÜRƏYİM

Ürəyim, ay ürəyim,
axı sənlə neyləyim?
Dəsmalmı verim sənə –
göz yaşımı siləsən?
Ürəyim, bil ki, səni
bütün ruhum, qəlbimlə,
anlamaq istəyirəm.
Nə vaxtdır bir yerdəyik
bir can-qəlbik əzəldən;
Mənsə hələ də səni
tanımıram... bilmirəm...

Təkcə sənə çatmaqçun
səni əldə etməkçün,
insanlar yalın əllə
köksümü parça-parça
dağıdıb uçurarlar...
Sən onlardan incimə. –
Bu qüssənin özüdür...–

qəlblərini səninlə
böləndə, bölüşəndə
qəm də xoşbəxt görünür...

Uşaqlıqdan bilirəm,
sən başqa bir aləmsən.
Buz kimi gecələrdə
yuxuya həsrətlisən.
Nahaq unuduram ki,
bu böyük planetdə
diləklər qanad çalır...
Arzulu yaşamağın
dərin mənası varmı? –
deyib fikrə dalıram...

Ürəyim, söylə mənə,
səni necə anlayım?
İzah et, – lap xırdaca
işarən də bəs eylər...
Açmasan əgər ki, sən
Tanrının bəxş etdiyi
sirrləri, gizlinləri,

gərək bir ömür boyu
gözləyim... ümidsizcə...

Ürəyim, yalvarıram
nə ağla, nə sızılda..!
Göz yaşların sinəmi
ilim-ilim dağlayır.
Acığım tutsa belə,
yenə səni sevirəm.
bəlkə də, gün gələcək
sənlə dostlaşacağam...

Sən ey, əziz ürəyim,
düşmən deyiləm sənə;
səni bütün ruhumla
anlamaq istəyirəm...
Yalan xoşbəxtçiliyi
heç cür qəbul etmirəm;
Amma sən bil, həmişə
mən səninlə olacam.

Gecdir, yatmaq vaxtıdır,
gecən xeyirə qalsın!

Mən səni səhərəcən
tərk edirəm... bağışla...
Yox, gəl məni aldatma.
İftiraya, yalana
dözmür dan şəfəqləri...
Bil, dünya dağılsa da
səni heç kimə verməm,
atmaram, itirmərəm...

# EY KÖVRƏK XƏZAN ÇAĞI

Ey kövrək xəzan çağı,
o qızıl yarpağında
sovurub apar məni;
Apar məni uzağa...
Qürubu yaxın edən
kədərim baş qaldırıb.
Bu sevgidən doymayan
o dəli məhəbbətdən
ürəyim şahə qalxıb...
Götürüb apar məni –
dalğaları yararaq
gəmilərin üzdüyü
qırçın ənginliklərə...

Sevmək nədir? – öyrəndim,
amma tez də unutdum;
Qar hər yanı sarıbsa
mən qışın gəlişində
kimi günahlandırım?!

Yaşanılmış hər günü
əbədi sevəcəyəm.
Kimsənin olmasam da,
özüm də mən deyiləm
öz özümə kölgəyəm...

Mən sevməyi öyrəndim,–
bu asanmış, çox asan...
Heyf ki, eşitdiyim
mənasız... xoş sözləri
qəlbimdən silməliyəm –
Silib, unutmalıyam...
Heyf ki, mən həm səni
həm də səninlə bağlı
kim varsa... hamısını
yaddan çıxarmalıyam.
Yoxsa hər yaşananı,
hər xırda anı belə
daim yaşatmalıyam?..

Hər şeyi lap yenidən,
səhərtək başlamaqçun,

hissləri, duyğuları
ta canımdan qovacam.
Baxışlarını belə
yadımdan çıxaracam.
İnsan selində səni
görüb tanımayacam...
Ancaq qürub çağında,
Günəş üfüqdən itib
Göy üzü qaralanda... –
Bax, bircə o vaxt səni
anıb, xatırlayıram...
Anıb, xatırlayacam...

## ÖLÜ KƏPƏNƏK

Çərçivəyə salınıb
bir bəzəkli kəpənək. –
Qanadları çırpınmır...
Ürəyindən iynəylə
pərçimləyiblər onu
şüşəli çərçivəyə...
Ölü gözəlliyiylə
bəzək verir divara, –
boş, yalqız bir otağa...
Özü ölüb,
gözəlliyi ölməyib...
Bunu duyur hər görən.
Görəsən ağrısını
varmı bir duyub-bilən?..

Aydan arı göylərdə
Gün üzü görməyir o...
Külək də tumarlamır
ipək qanadlarını...

Şüşənin arxasında
eləcə donub qalır;
Kədərini bir kimsə
nə hiss edir, nə yanır...

Bu gözəlliyi süzüb
ötüb keçən insanlar
həzz alır bu lövhədən –
kəpənək ölüsündən...
Gözəl sözlər səslənir
kəpənəyin şəninə,
ölü gözəlliyinə... –
Yayılır boş kəlmələr
xudbinlərin dilindən...

Şüşənin arxasından
baxırlar çırpınmayan,
döyünməyən varlığa –
o ölü gözəlliyə...
Düşünürəm bir anlıq:
Ölüm qərarı vermək
verilibmi bizlərə?

Biz haçan yiyələndik
o ilahi qüvvəyə.?!

İynəylə bir lövhəyə
sancılmış lal kəpənək.
Gözəlliyinə görə...
həyatla təmənnasız...
vidalaşan kəpənək...
Ey ruhları, qəlbləri
"sığallayan" kəpənək..!

Yuxumdaydın bu gecə,
Ancaq tamam başqaydın:
Gözoxşayan güllərin
üfüqündə qanadın...
min bir rəngə çalırdı,
Yanırdın... sayrışırdın.
Çox böyük heyranlıqla
mən səni seyr edirdim.
Həm də ki, ayağımla
şüşəli çərçivəni
sındırırdım, əzirdim...

# SƏN SEVİMLİSƏN MƏNƏ

Bir gün soruşdum səndən:
“söylə, hansı ağacdır
ən çox xoşuna gələn?”
“Xoşladığım küknardır –
boy-buxunlu,  sərv ağac” –
dedin, mənə baxaraq...
Heç bilmədim nə deyim...
“olsun” dedim eləcə... –
Ən gözəl ağac yəqin
küknardır Yer üzündə...

Bir dəfə də soruşdum
sevdiyin musiqini;
Gözəl bir melodiya
zümzümə etdin mənə.
Hər gün qulaq asıram
o gözəl musiqiyə.
Hüzurda bu musiqi
Arzu bəxş edir mənə.

“Günün hansı anını
çox sevirsən?” – soruşdum;
Sənsə gülümsəyərək
“dan yeridir” söylədin.
Mən də “uf” eləmədən
sevdiyim ulduzları
dan yerinin parlayan
şəfəqinə dəyişdim...

Mən səndən xəbər aldım
seçdiyin filmləri,
xoşladığın yeməyi,
sevdiyin ölkələri,
şeiri, rəsmi, sənəti...
Sən hansını dedinsə
o da xoş gəldi mənə;
Axı hər şeydən öncə
sən sevimlisən mənə!

## ÇƏTİN Kİ GERİ DÖNƏ

Sevinci qaytar mənə...
Qaytar mənə kədəri.
Son da mərak eyləyir
başlanğıcı, əvvəli...
Küləksə yaşananı
qataraq qabağına,
aparır uzaqlara...
Şəbi yelda gündüzü
çəkib hörük darına...

Gülüşü qaytar mənə...
Qaytar göz yaşlarımı.
Olub-keçənlər tez-tez
sarır yuxularımı...
Bir dəqiqəni belə
yox bölüşmək istəyim...
Yazılmaz günahıma
yəqin bu xəsisliyim...

Tufanı qaytar mənə...
Qaytar sakitliyimi.
Tükənməz olsa belə
məndə bu həyat eşqi –
Xahiş edirəm səndən
günün qürub çağını...
Yox! Ayaq saxla bir an,
sən bu gün Günəşimə
toxunma... yalvarıram.

Amma o eşitməyir
dediyim kəlmələri.
Onu yenidən məndən
alır, qoparıb gedir...
Payızı qaytar mənə –
o qızılı payızı...
Qaytar ruzigarımı...
İlıq nəfəsdən belə
əriyən ağ qarımı...

Əks-sədanı qaytar...
Qaytar mənə kölgəmi.

Axı, dünyada hər şey
dövr edir, təkrarlanır...
Yaşayıban başa vur
bu günü də eləcə.
Çətin o bir də sənin
sabah yanına dönə...

## UŞAQLARIM

Getsəm də dünyanın
lap o başına,
Ətəyimdən tutaraq
gələcəklər arxamca.
Heç soruşmayacaqlar
hara yol aldığmı... –
Çünki analarının
mehriban baxışını
bu dünyada hər şeydən
üstün tutar körpələr...
O baxışa sığınıb
üfüqlərə gedərlər...

Ovuclarımda bərk-bərk
sıxıram bapbalaca,
yupyumşaq əllərini.
Addımlayırlar mənlə –
ürəklərində yoxdur
bircə zərrə təmənna.

Mənimçün də onların
şux səsi, gül çöhrəsi
əvəzsizdir dünyada...

Onlar mənimlədirsə
göy lap qaranlıq olsun –
Günəş yarar zülməti..!
Qorxulu deyil mənə
nə şimşək, nə də tufan.
Lap hava sərin olsun –
uşaqlarımın sonsuz,
ümmanları daşıran
sevgi dolu nəfəsi
isidəcək aləmi...

Onlar arxamca gəlir –
dünyanın o başına...
Sonsuz qalaktikanı
gəzərik, fəth edərik...
Yoxdur ürəklərində
"yox" sözü, ümidsizlik...

Qəlbləri tərtəmizdir,
qaranlıqlar girməyib
uşaq dünyalarına...

İnanın ki, onları
tanımırıq dərindən.
Batmışıq qayğıların
sonsuz burulğanında...
Çox zaman hiss etmirik,
əfsus ki, hiss etmirik...
Bizim üçün darıxan
kövrək ürəklərini.

Onlarsa incimirlər,
Mehriban baxışlarla
bağışlayırlar bizi.
Əvəzində çoxmu şey
istəyirlər görəsən?.. –
Tək bir diləkləri var:
"Anam bizimlə olsun
bu dünya hey durduqca.
Bir də unutmasınlar,
biz möhtacıq onlara".

# QƏZƏB

Qəzəb – alovlu bir daş –
kim əlində tutarsa
yandırar öz əlini...
Qəzəb – sanki zəhərdi –
dodağında quruyan
bircə damcısı belə
özün də hiss etmədən
zəhərlər dərrakəni...
Qəzəb – sanki gecədi –
Ayı yox, ulduzu yox...
Qəzəb – gündüzdür sanki –
Günəşi yox, göyü yox...
Qəzəb – sanki İblisin
əlində bir xəncərdi –
İnsanları məhv edər,
sonra qəhqəhə çəkər...

Kimdir axı bu qəzəb,
nədi axı bu qəzəb?

Hardandır bu güc onda?
Dünya boyda kin, hiddət
necə sığışır ona?
Sevgini ürəklərdən
silməyi o öyrədir.
Sevgi uzaqlaşdıqca
yerinə nifrət girir.
Nifrət sanki boğaza
tarım çəkilmiş bir ip... –
Boğur bizi, boğduqca
ağlımız dumanlanır.
Nifrətin qanunu yox –
hamıya hökm oxuyur;
Haqsız olan haqqıyla
ağzımızı qapayır...

Dostum, rica edirəm,
gəl, mənə qəzəblənmə..!
İçində Xeyirə də,
hələ Şərə də yer var..!
Qaçma məndən, ey dostum,
qayıt, tezcənə qayıt..!

Xeyir ilə Şər üçün
sənin dünyan dardı, dar...

Elə isə... onda aç
köksünün qapısını;
İşıqlı nəyin varsa
gəl, burax azadlığa.
Zülməti də azad et –
Qoy öz ağırlığıyla
girsin yerin bağrına.
Sevinci də azad et,
azad et ağrını da...
İçində sakitliyi,
bir də dincliyi saxla..!
Bil ki, əngin dünyanın
rəngləri çalar-çalar...
Qapat sən gözlərini
ümidsiz əllərinlə.
Hiss et parlaq rəngləri –
Baş vur dərinliyinə.

Ver, ver özgələrinə
qəm-qüssəni, xiffəti;

Ver, ver  özgələrinə
gülüşünü, sevinci... –
Qoy bayram eləsinlər,
həm də qoy çarpışsınlar;
Şöhrətə çatmaq üçün
boşuna vuruşanlar
ağılsızdır əslində... –
Şöhrət halal bir şeydir
özü səni tapacaq –
hətta gizlənsən belə...

***Tərcümələrin edildiyi tarix:***
*19 may 2014 – 30 oktyabr 2015*

# MÜNDƏRİCAT

GEDİM BİR AZ AĞLAYIM ..........................3
ULDUZLAR PİLLƏ-PİLLƏ
DÜZÜLSƏYDİ SƏMAYA..........................7
ANA, NƏ OLAR, GETMƏ! ........................11
SEVGİ VƏ NİFRƏT...................................15
GECƏ, QÜSURA BAXMA! ........................18
MƏKTUB...................................................21
HƏR KƏSİN ÖZ SONU VAR.....................25
MƏNƏ DƏRMAN VERİN… .......................28
PƏRVANƏ ...............................................31
SƏNİ ATMAQ İSTƏMİRƏM......................34
VAXT.........................................................39
YAY...........................................................42
ÇIXIB GETMƏ ..........................................45
İNSANLAR ...............................................49
CƏZAMI MƏN VERƏCƏM.........................53
ÖMÜR........................................................57
MƏNƏ BİR KƏLMƏ SÖZ DE... ................59
ROMADA... TOZLU OTURACAQDA .......63

GİZLİ SEVGİ BƏSLƏMƏK........................66
QU QUŞU................................................69
DOSTLAR..............................................74
KOR OLMUŞAM......................................77
MİLYARD ÖPÜŞ......................................82
YENƏ DƏ TƏK-TƏNHAYAM... ...............87
ORADA ƏBƏDİYƏM ...............................92
SƏNİ ANLAMIRAM MƏN.........................95
MƏSUM QIZCIĞAZ.................................98
YALAN ...............................................102
HARDASAN, DÜNYANIN YAXŞI ADAMI? ....................................106
KƏDƏR................................................110
GÖZƏLLİK ...........................................113
YENİ İL................................................117
ÜÇ QOCA BALIQÇI VƏ QIZIL BALIQ .121
TANRIM, SƏN MƏNƏ GÜC VER! ...........127
ƏMİNƏ NƏNƏ ......................................131
İLK BAXIŞDAN VURULDUM ................134
ÇƏRÇİVƏYƏ SIĞMARAM......................139
SƏN ELƏ GÖZƏLSƏN Kİ… ....................143

SƏN GETDİN UZAQLARA ........................146
HEÇ VAXT YALQIZ DEYİLSƏN ............148
ÜMİD ......................................................151
DOSTUM, YAXŞI Kİ, VARSAN ..............154
KƏDƏR ÖTÜB GEDƏCƏK ......................158
MƏNİM ŞEİRİM.......................................160
QAÇIRIQ, UÇURUQ, TƏRK EDİRİK ......163
ÜRƏYİMDƏ YADIMSAN.........................168
MƏNƏ ÖZÜNDƏN DANIŞ... ....................170
EY MƏNİM MƏHƏBBƏTİM ....................172
ÜRƏYİM ..................................................175
EY KÖVRƏK XƏZAN ÇAĞI....................179
ÖLÜ KƏPƏNƏK.......................................182
SƏN SEVİMLİSƏN MƏNƏ ......................185
ÇƏTİN Kİ GERİ DÖNƏ............................187
UŞAQLARIM ..........................................190
QƏZƏB ....................................................193

Kitabın üz qabığının tərtibatında
http://instaliga.com/vip.leylaliyeva/
saytındakı şəkildən istifadə edilib.

Çapa imzalanmışdır: 25.10.2016
Formatı 70x100 1/32.
Həcmi: 6,25 ç.v.
Sayı: 500.
Sifariş:37.

«Adiloğlu Çap Evi»nin mətbəəsində
çap olunmuşdur.

Ünvan. Bakı şəh., Ə.Salamzadə 9c